

**Milli Məclis Şuşa Bəyannaməsini təsdiqləyib**

7

# Qürurlu tariximizi yazan Azərbaycan gəncliyi



2



Səs
№ 019 (6460) 2 fevral 2022-ci il. Qiymətı 60 qəpik

# Ermənistan ordusunun "regional güc mifi" məhv olub



Armenianreport erməni silahlı qüvvələrinin uçurumun kənarında qaldığını yazır

14



7

## "Yeni Azərbaycan Partiyası üzvlərinin qeydiyyatının dəqiqləşdirilməsi üçün indiyədək xeyli işlər görülüb"

"Təşkilatlanma prosesi partiyamızda müxtəlif istiqamətlər üzrə aparılır. Burada ilk növbədə partiyanın Sədri tərəfindən müəyyən edilmiş yeni yanaşmalar əsasında çıxış edərək YAP-ın fəaliyyətinin institusional əsaslarının, normativ hüquqi bazasının formalaşdırılması istiqamətində işlər görülüb". Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi...

16




## "Marsel" - "Qarabağ" matçı harada keçiriləcək?

**Jerusalem Post Türkiyə-İsrail münasibətlərində Azərbaycanın mühüm rolundan yazdı**

THE JERUSALEM POST

İsrail nəşri: "Türkiyə ilə sülhə şans vermək İsrailin marağındadır"

9

## Ermənistan

Qazaxla sərhədə qoşun yığır - Rusların Hadrut oyunu





## Gəncəyə

edilən terror erməni faşizminin əsl simasıdır

10

İngilis səyyahı Vilson ermənilər haqqında deyib: "Ermənilər acgöz və tamahkardırlar. Onlar istənilən bir cəfəngiyatı...



**İvan Pyatibratov: "Görünür, 3-cü tərəflər olmadan demarkasiya prosesi başlamayacaq"**

11

Rusiyalı politoloq, Siyasi İnformasiya Mərkəzinin aparıcı analitiki İvan Pyatibratov "Caliber.Az-a müsahibəsində Cənubi...

## Rəsmi xronika

Prezident İlham Əliyev 2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Zərifə Teymur qızı Salahova "Şərəf" ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, o, Azərbaycan Respublikasının ictimai və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

# Qürurlu tariximizi yazan Azərbaycan gəncliyi



*Prezident İlham Əliyev: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib"*

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Ölkəmizdə gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Ulu Öndər Heydər Əliyevin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri, dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla gəncləri Azərbaycanın uğurlu gələcəyi naminə səfərbər edir. Ulu Öndər gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşmış, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermiş, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirmişdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gənc nəslə diqqəti dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirildi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.




## AZƏRBAYCAN GƏNCLƏRİ AVROPA MİQYASINDA, BEYNƏLXALQ QURUMLARDA TƏMSİL OLUNURLAR

Bu gün dövlət gənclər siyasəti ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Bunun nəticəsidir ki, bugünki Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellekt yetişir. Prezident İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bu gün Azərbaycanda gənclərin uğurlu gələcəyi üçün hər bir şərait vardır.

2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditinin verilməsi barədə imzaladığı Fərman Azərbaycan dövlətinin gənclərə göstərdiyi qayğını özündə təcəssüm etdirir. Gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların ahəngdar inkişafı və asudə vaxtının təşkili və s. məqsədilə "Gənclər Evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması da elə gənclərə dövlət qayğısıdır. İlk "Gənclər Evi" 2006-cı ildə Ağsu rayonunda fəaliyyətə başlasa da, bu gün onların sayı artmaqdadır.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində verilir.

*Ardı Səh. 3*

# Qürurlu tariximizi yazan
# Azərbaycan gəncliyi




**Prezident İlham Əliyev:**
***"Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib"***

Əvvəli Səh. 2

### "ASAN XİDMƏT"DƏ İŞLƏYƏNLƏRİN MÜTLƏQ ƏKSƏRİYYƏTİ GƏNCLƏRDİR

Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı



gücü məhz gənclərdir. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzaladı. Ölkəmizdə təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi onlar ayrı-ayrı təşkilatlarda müxtəlif vəzifələrdə işləyirlər. Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və bu gün "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir.

### ÖLKƏMİZİN 55 ŞƏHƏR VƏ RAYONUNDA GİKM-NİN NÜMAYƏNDƏLİKLƏRİ FƏALİYYƏT GÖSTƏRİR

2018-ci ilin noyabr ayında Gənclərin İnkişaf və Karyera Mərkəzi



Azərbaycan Respublikası Gənclər Fondunun nəzdində fəaliyyətə başlayıb. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il tarixli 1 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması məqsədilə ölkənin şəhər və rayonlarındakı Heydər Əliyev Mərkəzlərində GİKM-in nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi qərara alınmışdı. Gənclərin hərtərəfli inkişafının təmin olunması, əlavə bilik və bacarıqlara yiyələnməsi üçün GİKM nümayəndəlikləri tərəfindən müxtəlif peşə təlimləri, təhsil və təcrübə, könüllülük, görüşlər, seminarlar, intellektual oyunlar və digər tədbirlər təşkil olunur. Nümayəndəliklər vasitəsilə regionda yaşayan gənclər dövlət tərəfindən onlar üçün yaradılan imkanlar barədə məlumat və məsləhət almaq, həmçinin müxtəlif proqramlara müraciət və onlarda iştirak etmək imkanı qazanırlar. Respublikanın 55 şəhər və rayonunda Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri fəaliyyət göstərir.

Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Ölkəmizdə aparılan gənclər siyasəti hər bir gəncin üzərinə böyük məsuliyyət qoyur. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar.

### DÜŞMƏNƏ NİFRƏT HİSSİ BİZİ QƏLƏBƏYƏ APARDI VƏ AZƏRBAYCAN TARİXİ ƏDALƏTİ BƏRPA ETDİ

Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib". Cənab Prezident bildirib ki, Onun Azərbaycana rəhbərliyi dövründə yetişən insanlar bu torpaqları azad et-



dilər: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi."

Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu gün Azərbaycan belə oğulları ilə qürurlanır, fəxr edir. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycanın dövlət müstəqilliyinin əbədi və əzəli olmasını qorumaq və saxlamaq üçün gənclər yaxşı təhsil almalı, çox çalışmalı, peşələrinə yaxşı yiyələnməli, vətənpərvər olmalıdırlar. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Bu, Qarabağla, onun dirçəldilməsi ilə bağlı mənəvi məsuliyyətdir. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

*Nəzakət ƏLƏDDİNQIZI*




# YAP Mərkəzi Aparatında

## "Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli" mövzusunda konfrans keçirilib

**Fevralın 1-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Gənclər Birliyinin təşkilatçılığı ilə 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli" mövzusunda konfrans keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları YAP Mərkəzi Aparatının foyesində 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş rəsm sərgisi ilə tanış olublar.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Azərbaycanda dövlət gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfransda açılış nitqi ilə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, gənclik enerji, təşəbbüskarlıq, yaradıcılıq və yenilikçilik deməkdir. Dünya təcrübəsi göstərir ki, tarixi ənənələri, mütərəqqi dəyərləri mənimsəmiş, milli ideologiya ətrafında sıx birləşmiş, vətənpərvərlik ideyası əsasında tərbiyə olunmuş - yetişmiş gənclik inkişaf mənbəyidir. Çünki cəmiyyətin dinamik və aparıcı qüvvəsi olan gənclərin fiziki və mənəvi potensialından səmərəli, məqsədyönlü şəkildə istifadə edilməsi həm milli tərəqqiyə mühüm töhfə verir, həm də parlaq perspektivlər formalaşdırır. Burada əsas strateji məqam dövlətin uğurlu, milli maraqlara və müasir çağırışlara əsaslanan gənclər siyasəti həyata keçirməsidir. Onun sözlərinə görə, XX əsrin 90-cı illərinin əvvəlindən bu günə qədər dünyanın ictimai-siyasi mənzərəsinə nəzər saldıqda müxtəlif ölkələrdə çoxsaylı kataklizmlərin, qarşıdurma və ziddiyyətlərin baş verdiyini görürük. Təbii ki, siyasi, iqtisadi, sosial və digər amillərlə əlaqədar baş verən bu hadisələr - cərəyan edən proseslər bir çox hallarda həmin xalqlar üçün çox ağır fəsadlara səbəb olur, ölkələr uzun müddət xaos və anarxiya məkanına çevrilir. Belə konfrontasiyaların meydana çıxmasında, eyni zamanda, bəzi xarici güc mərkəzlərinin təhriki və təşviqi də xüsusi rol oynayır. Həmin qüvvələr müxtəlif vasitələrlə təsir altına saldıqları gənclərdən də ölkələrin milli maraqlarına qarşı istifadə edirlər. Təbii ki, cəmiyyətdə ideoloji boşluqların hökm sürməsi, gənclərin milli ruhda, vətənpərvərlik ideyası əsasında tərbiyə olunmamaları xarici qüvvələrin müdaxiləsini asanlaşdıran neqativ amil kimi çıxış edir. Xalqımızın xoşbəxtliyi ondadır ki, ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı olan Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti nəticəsində Azərbaycanda xalq-iqtidar birliyi tam təmin olunub, bəzi geosiyasi mərkəzlərin qaranlıq planları və dağıdıcı ssenarilərinin reallaşmasının qarşısı alınıb, Azərbaycan sabitlik adası və təhlükəsizlik məkanı kimi uğurlu inkişaf yoluna çıxıb. Belə bir şəraitdə Azərbaycan gəncliyi də həm ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etmək missiyasını uğurla yerinə yetirib, həm də respublikamızın ərazi bütövlüyünün təmin olunmasında öz üzərinə düşən vəzifənin öhdəsindən məsuliyyətlə və şərəflə gəlib. Bu reallıq ölkə gəncliyinin vətənpərvərlik ruhunun timsalında və xalqımızın mübarizə əzminin fonunda müasir müstəqil Azərbaycan dövlətinin mütərəqqi simasının, sarsılmaz qüdrətinin və parlaq gələcəyinin əyani ifadəsidir.

"İnkaredilməz həqiqətdir ki, Azərbaycanda uğurlu - tarixi ənənələrə, ictimai və milli dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına, reallıqlarına uyğun gənclər siyasətinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandırırdı. Heydər Əliyev qeyd edirdi ki, hər bir xalqın, millətin, ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir", - deyən YAP Sədrinin müavini qeyd edib ki, Ulu Öndər gənclər siyasəti sahəsində vacib qərarlar qəbul etməklə, mühüm fərman və sərəncamlar imzalamaqla gənc dövlətin gənclər siyasətinin hüquqi əsaslarını formalaşdırıb, demokratik inkişafı təmin etməklə gəncliyin inkişafının ictimai-siyasi özüllərini möhkəmləndirib: "Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılması məqsədilə ulu öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması bu kontekstdə xüsusi vurğulanmalıdır. Ümummilli Liderin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi müdrik dövlət xadiminin və Azərbaycan dövlətinin gəncliyin inkişafına xüsusi diqqət və qayğısının bariz təzahürü - əyani göstəricisidir. Bununla yanaşı, Heydər Əliyevin 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" Fərman imzalaması respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait və imkanların genişləndirilməsi baxımından müstəsna əhəmiyyətə malik olmuşdur. Bütövlükdə, Ulu Öndərin gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərinin müəyyənləşdirilməsi, təşkilati-hüquqi əsasların formalaşdırılması yönündə atdığı addımlar Azərbaycanın inkişafına, yeni cəmiyyət, hüquqi dövlət quruculuğuna töhfə olub.

Ümummilli Liderimiz qeyd edirdi ki, hər bir Azərbaycan gənci müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Məhz Heydər Əliyevin siyasəti nəticəsində öz xalqının ali mənafeyini, dövlətinin strateji maraqlarını düşünən - nəzərə alan, öz fəaliyyətində rəhbər tutan mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyi formalaşıb. Heç şübhəsiz, ulu öndər Heydər Əliyevin xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri üçün ən böyük miraslarından biri siyasi varisliyi təmin etməsidir. O, özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq Lider - şəxsiyyət yetişdirməklə dövlətçilik tariximizin ən böyük xidmətlərindən birini göstərib. Cənab İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyulub. Dövlət başçısının gənclər siyasəti isə milli tərəqqiyə təkan verən çox mühüm amillərdən biri olub".

Vurğulanıb ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2007-ci ilin "Gənclər İli" elan edilməsi, bu istiqamətdə mühüm addımların atılması - çoxşaxəli tədbirlərin həyata keçirilməsi gənclərin ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb olub, növbəti illər üçün zəngin təcrübə və ənənələr formalaşdırıb. Bununla yanaşı, 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, 2013-cü il 2 iyul tarixində isə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi Azərbaycan gənclərinin müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək yeni nailiyyətlər qazanmasına stimul və dayanıqlı zəmin yaradıb. Digər tərəfdən, dövlət başçısı ötən müddət ərzində gənclər siyasətinin təkmilləşməsinə, bu sahədə təşkilatı-hüquqi əsasların möhkəmlənməsinə, bütövlükdə, Azərbaycan gəncliyinin inkişafına xidmət edən çox mühüm qərarlar verib, fərman və sərəncamlar imzalayıb. "Azərbaycan gəncliyi 2005-2009-cu illərdə" Dövlət Proqramı, "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və digər bu kimi sənədlərin qəbul edilməsi isə gənclər siyasətinin səmərəliliyinin artırılmasına, bu yenilikçi və aparıcı qüvvənin potensialının Azərbaycanın inkişafına yönləndirilməsinə yeni və daha geniş imkanlar yaradıb.





*Ardı Səh. 5*

# YAP Mərkəzi Aparatında

## "Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli" mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 4

"Ən mühüm məqamlardan biri odur ki, gənclər Prezident İlham Əliyevin islahatlar kursunun çox mühüm qüvvəsini təşkil edir. Daha dəqiq desək, dövlət başçısının kadr islahatları, gənclərə müxtəlif vəzifələrdə etimad göstərilməsi, onların məsul vəzifələrə, idarəetmə işinə irəli çəkilməsi, qabiliyyət və bacarıqlarını nümayiş etdirmələri üçün şərait yaradılması Azərbaycanın inkişafının sürətlənməsini və milli gücünün artmasını şərtləndirir", - deyən Tahir Budaqov diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi əsasında həyata keçirilən layihələr, görülən işlər də fiziki və mənəvi cəhətdən sağlam gəncliyin formalaşmasına - gənclərin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlər əsasında yetişməsinə, müxtəlif sahələrdə böyük uğurlar qazanması və ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etməsinə fundamental töhfə olub: "Onu da qeyd etmək istəyirəm ki, ölkəmizdə könüllülər hərəkatının geniş vüsət alması gənclər siyasətinin səmərəliliyinin artması baxımından olduqca önəmlidir. Dövlət başçısının müvafiq Sərəncamı əsasında 2020-ci il "Könüllülər İli" elan edilib və genişmiqyaslı tədbirlər, səmərəli fəaliyyət nəticəsində Azərbaycanda könüllülük artıq bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata, gənclərin həyat tərzinə çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın ayrı-ayrı sahələrinə yayılaraq cəmiyyətimizin müxtəlif təbəqələrini əhatə edir. Şübhəsiz ki, könüllülük hərəkatı gələcək üçün sərmayədir.



Sadalananlardan əlavə, həm Prezident İlham Əliyevin, həm də Mehriban xanım Əliyevanın idmanın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşmaları sağlam gəncliyin inkişafına xidmət edən çox mühüm amillərdəndir. Respublikamızda idmanın maddi-texniki bazası davamlı olaraq möhkəmləndirilir, idmançıların sosial-məişət məsələləri həll edilir və bu sahədə mütərəqqi təcrübə tətbiq olunur. Bunun nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, gənclərimiz mötəbər beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edərək üçrəngli bayrağımızın ən yüksək zirvədə dalğalanması şərəfinə və uğuruna nail olurlar.








Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçərək möhtəşəm nailiyyətlər qazanan Yeni Azərbaycan Partiyası da öz fəaliyyətində gənclərin potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir - böyük önəm verir, gəncliyin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirir. Ümumiyyətlə, partiyamızın siyasi dinamizmini təmin edən amillərdən biri uğurlu gənclər siyasətinin reallaşdırılması, Azərbaycan gəncliyinin Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə güclü ictimai dəstək nümayiş etdirməsidir. Bunun nəticəsi özünü gənclərin Yeni Azərbaycan Partiyasına daimi və sürətli axınında göstərir. Bu gün YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir".



Bildirilib ki, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Partiyamız tarixi ənənələrə, müasir çağırışlara və mütərəqqi dəyərlərə əsaslanan fəaliyyəti ilə milli həmrəyliyin ideoloji düsturu olan azərbaycançılıq məfkurəsinin geniş təbliğinə və mənimsənilməsinə vacib töhfələr verir. Dünya azərbaycanlılarının, o cümlədən mütərəqqi qüvvə olan gənclərin də milli ideologiyanı əxz edərək yüksək vətənpərvərlik nümayiş etdirməsində YAP-ın bu istiqamətdə məqsədyönlü fəaliyyətinin müstəsna rolu var. Bu, həmçinin Azərbaycanın sabitlik adası və təhlükəsizlik məkanı kimi sürətli və dayanıqlı inkişafına etibarlı zəmin yaradır. Əlbəttə, yenilikçi və fəal qüvvə olan, daim irəliyə baxan və perspektivi düşünən təbəqənin - sağlam düşüncəli gənclərin vahid seçiminin Yeni Azərbaycan Partiyası olması təsadüfi deyil. Çünki vətəndaşların ali mənafeyini qoruyan, gənclərin xalqa və dövlətə faydalı ideyalarını dəstəkləyən YAP Azərbaycanın dünəni, bu günü olduğu kimi, gələcəyi - aydın sabahı və parlaq perspektivi olduğunu da öz əməli fəaliyyəti ilə sübuta yetirib. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.



"Prezident İlham Əliyev gənclərə xitabən "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" deyə qətiyyətlə vurğulayıb. Reallıqlar birmənalı şəkildə təsdiqləyir ki, Azərbaycan gəncliyi dövlətə, Vətənə və xalqa sədaqət andını yüksək səviyyədə və inamla yerinə yetirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşib, Onun siyasətinə prinsipial dəstək ifadə edir. Sevindirici və təqdirəlayiq haldır ki, Heydər Əliyev ideyalarını dərindən mənimsəyən, milli məfkurəmiz olan azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşən gənc nəslin nümayəndələri qüdrətli Azərbaycan dövlətinin sağlam düşüncəli vətəndaşları kimi ölkəmizin inkişafına mühüm töhfə verir, respublikamızı beynəlxalq arenada layiqincə təmsil edirlər. Və əminliklə söyləmək olar ki, qüdrətli və nüfuzlu Azərbaycan Böyük yolun Müzəffər davamçısı olan İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər qazanacaq - yeni strateji zirvələr fəth edəcək, mütərəqqi Azərbaycan gəncliyi isə qalib və güclü dövlətin vətəndaşları kimi səmərəli fəaliyyət göstərərək öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, milli tərəqqiyə mühüm töhfə verəcəklər!", - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

Konfransda çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, könüllülük nəcib xüsusiyyət kimi xalqımızın mental dəyərlərindəndir. Müstəqillik illərində də gənclərimiz könüllü şəkildə müxtəlif sahələrin inkişafına töhfələr veriblər. Onun sözlərinə görə, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra gənclərimiz dövlət quruculuğu prosesində fəal iştirak etdilər.



Ü.Mehdiyev qeyd edib ki, son illər könüllülüyün sürətlə inkişaf etdiyi Azərbaycan bu fəaliyyətin təbliğində və inkişafında özünəməxsus rol oynayır. "ASAN xidmət"in yaradılması ilə ölkəmizdə könüllülük hərəkatı böyük vüsət almağa başladı. Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücünün məhz gənclər olması sirr deyil. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olmasına diqqət ayıran Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Hazırda "ASAN xidmət"in 28 mindən çox könüllüsü var. Bu gün "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Eləcə də digər qurumlarda da könüllülər çalışırlar. O cümlədən könüllülük hərəkatında fəal iştirak edən YAP üzvü olan gənclər kifayət qədərdir.

Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyətinin olduğunu deyən Ü.Mehdiyev qeyd edib: "Azərbaycanda könüllər hərəkatı ölkəmizdə keçirilən bir sıra mühüm beynəlxalq tədbirlərdə əhəmiyyətli fəaliyyəti ilə seçilib. Belə təcrübələr həm də gənclərin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Mən gənclərimizi daha da fəal olmağa, könüllülük hərəkatına qoşulmağa çağırıram".



Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov ilk olaraq ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin fevral ayında keçirilmiş Azərbaycan Gənclərinin I Forumu barədə xatirələrini bölüşüb. O, Azərbaycan təhsilinin keçdiyi inkişaf yolundan bəhs edib, təhsilimizin inkişafında ümummilli liderimiz Heydər Əliyevin əvəzolunmaz xidmətlərindən danışıb. Nazir müavini bildirib ki, Ulu Öndərimizin dediyi kimi, təhsil millətin gələcəyidir. Bu gün təhsilimizin davamlı inkişafı Prezident İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın xüsusi diqqət mərkəzindədir.

Ardı Səh. 6

# YAP Mərkəzi Aparatında

## “Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli” mövzusunda konfrans keçirilib





Əvvəli Səh. 5

Cəmiyyətin inkişafında təhsilin böyük əhəmiyyətə malik olduğunu deyən F. Qurbanov diqqətə çatdırıb: ”Azərbaycan dövləti təhsilə xüsusi əhəmiyyət verir. Ölkəmizdə təhsilin inkişaf etdirilməsi üçün ardıcıl işlər görülür. Bu mənada, gənclərin yüksək təhsil alması, yüksək bilikli vətəndaş kimi formalaşması onların dayanıqlı inkişafında mühüm rol oynayır. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərimizdə təhsil infrastrukturunun bərpa olunması müsbət nəticələrini göstərəcək. Biz gənclərimizin Vətən müharibəsindəki şücaətinin şahidi olduq. Bu o deməkdir ki, Azərbaycan gəncliyi yüksək vətənpərvərlik ruhunda formalaşıb”.

Nazir müavini elm və təhsilin hər bir dövlətin və cəmiyyətin inkişafında mühüm amil olduğunu vurğulayaraq deyib: ”Bu gün Azərbaycan dövləti gənclərin yüksək təhsil alması üçün bütün lazımi addımları atır. Xüsusilə təhsilimizin maddi-texniki bazasının gücləndirilməsi, dünya təhsilinə inteqrasiyası istiqamətində sistemli tədbirlər həyata keçirilir. Gənc nəslin yüksək biliklərə sahib olması, vətənpərvər ruhda yetişdirilməsi, istedadlı gənclərin üzə çıxarılması, dünyanın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi və s. addımlar bu qəbildəndir. Gəncliyin inkişafı istiqamətində müxtəlif dövlət proqramları da icra olunub. Məsələn, 2007-2015-ci illəri əhatə edən Azərbaycan gənclərinin xaricdə təhsili ilə bağlı Dövlət Proqramı





çərçivəsində 3558 gəncimiz 32 ölkənin 350 nüfuzlu ali məktəblərində təhsil aldılar. Həmin gənclərin böyük əksəriyyəti yüksək biliklərə sahib olan mütəxəssislər kimi dövlət və özəl sektorda çalışırlar. Bir məlumatı da diqqətinizə çatdırım ki, gənclərimizin xaricdə magistratura təhsili ilə bağlı yeni dövlət proqramı da hazırlanır. Həmin proqram 2022-2026-cı illəri əhatə edəcək. Bu proqramların məqsədi Azərbaycan gəncliyinin müasir biliklərə sahib olmasıdır”.

O, Azərbaycanın gələcək inkişafı naminə müasir biliklərə yiyələnməyin, milli dəyərləri qorumağın, vətənpərvər olmağın gənclərimizin başlıca vəzifələrindən olduğunu diqqətə çatdırıb. Nazir müavini bu istiqamətdə gənclərə öz tövsiyələrini verib.

Konfransda çıxış edən Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini Fərhad Hacıyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs edib. Onun sözlərinə görə, bu gün Azərbaycanda yeni bir nəsil formalaşıb. ”Biz artıq 25 ildir Azərbaycanda Gənclər Gününü qeyd edirik. Bu, Ulu Öndərimizin gənclərə bir töhfəsidir. Ulu öndər Heydər Əliyev müdrik siyasi xadim, xalqını və millətini sevən böyük rəhbər kimi hər zaman Azərbaycan gəncliyinin inkişafının dəstəklənməsini ən başlıca prioritet hesab edib. Hətta ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra ilk görüşlərdən birini məhz gənclərlə keçirdi, yaratdığı ilk qurumlardan biri də Gənclər və İdman Nazirliyi oldu. Bu onu göstərir ki, gəncliyin inkişafı Ulu Öndərimizin zamanından həmişə dövlətin ən başlıca prioritetlərindən biri olub”, - deyə nazir müavini bildirib.

Nazir müavini qeyd edib ki, Prezident İlham Əliyev hazırda bu siyasəti uğurla davam etdirir, bu siyasət daha geniş vüsət alıb, müasir dünyanın çağırışlarına cavab verir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, yaradıcı gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Bu gün Azərbaycanın gənclər siyasəti dünyanın bir çox ölkələri üçün qabaqcıl nümunədir və artıq bu nümunə öyrənilir. Dövlətimiz gənclər üçün bütün imkanları yaradıb. Gənclərimiz bu imkanlardan yararlanmalıdırlar. Nümunə olaraq Gənclər Fondunun fəaliyyətini qeyd etmək istəyirəm. Fond fərdi şəkildə gənclərin təqdim etdiyi layihələri qiymətləndirir. Bunun nəticəsində bir çox gənclərimizin bacarıqlarının şahidi olmuşuq. Eyni zamanda, biz 44 günlük Vətən müharibəsində gənclərimizin qəhrəmanlığının, şücaətinin şahidi olduq. Biz belə gəncliklə qürur duyuruq”.



Konfransda çıxış edən Azərbaycan Silahlı Qüvvələrinin zabiti, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev bildirib ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Xüsusilə gənclərimizin yüksək vətənpərvərlik ruhu vurğulanmalıdır. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız 30 illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı Zəfərin qazanılmasında gənclərin rolunu xüsusi vurğulayıb. Vətən müharibəsində Azərbaycan gəncliyini sanki yenidən tanıdıq, böyük milli potensialımızı üzə çıxardıq. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil xalqın milli maraqlarının pozulmasına heç zaman yol verməz. Haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Canı-qanı bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edər. Vətən müharibəsi ərəfəsində, hərbi əməliyyatların gedişində hər yeri bayraqlarımızla bəzəyən, gur səsi ilə cəmiyyətimizi qələbə ovqatına kökləyən, inam yaradan da əsasən gənclərimiz idi. Prezident İlham Əliyevin səfərbərlik çağırışına on minlərlə gənc mərdliklə cavab verdi. Hamı döyüşə getmək üçün könüllü yazılırdı. Gənclərimiz yerli səfərbərlik idarələrindən dərhal orduya aparılmalarını israrla tələb edirdilər. Hər vəchlə cəbhədəki dostlarının, həmyaşıdlarının yanında olmağa, düşməndən qisas almağa can atırdılar. Hərb meydanına, qanlı savaşa ruh yüksəkliyi ilə yollanırdılar. Düşmənlə üz-üzə yalnız qələbə barədə düşünür, vətənpərvərlikləri, döyüş ruhları, hazırlıqları, əzmkarlıqları ilə işğalçının qorxulu yuxusuna çevrilirdilər. Onların azad edilmiş məskənlərimizdə üçrəngli bayrağımızı qaldırmaları, Dövlət Himnimizi oxumaları Azərbaycan gəncliyinin Vətən qarşısındakı müstəsna xidmətlərinin tarixdə əbədiləşmiş mənzərəsidir.

A.Mirzəyev qeyd edib ki, qazanılan Qələbə milli potensialımızı üzə çıxardı. ”44 günlük Vətən müharibəsində qazandığımız Zəfər milli birliyimizin qələbəsidir. Azərbaycan gəncləri bu gün də öz missiyasını şərəflə davam etdirir, Vətənimizin keşiyində dayanırlar”, - deyə o qeyd edib.

Konfransda yekun nitq söyləyən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan gəncliyinin uğurlarının bundan sonra da davam edəcəyinə əminliyini söyləyib. O, 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək gənclərimizə müstəqil ölkəmizin inkişafı naminə fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıb.

Konfransda Yeni Azərbaycan Partiyasının üzvü olan fəal gənclər müxtəlif nominasiyalar üzrə YAP tərəfindən diplomlar və müvafiq qurumlar tərəfindən hədiyyələrlə mükafatlandırılıb.



Sonra ”Azərbaycan gəncliyi üçün yeni çağırışlar: Əsas prioritetlər” mövzusunda panel iclası keçirilib.

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı, Naxçıvan Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevin moderatorluğu ilə keçən panel iclasında Azərbaycan Gənclər Fondunun Gənclərlə iş şöbəsinin müdiri Seymur Hüseynov və ”Gənclər üçün Təhsil Mərkəzi” İctimai Birliyinin sədri Fəxrəddin Həsənzadə çıxış ediblər. Çıxışlarda Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin uğurlarından bəhs olunub.

# İlham Əliyev:

## “Bu sənədlərin hamısında tələb eynidir - Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin”




”Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri var. Bu sənədlərin hamısında tələb eynidir - Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu, bizim suveren hüququmuzdur”. Bunu Prezident İlham Əliyev yanvarın 30-da ”Rossiya 24” telekanalında TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycanın dövlət başçısının 60 illik yubileyinə həsr olunmuş ”Hakimiyyət formulu” verilişində deyib.

### “Ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil”

Dövlət başçısı dəfələrlə çıxışlarında bildirib ki, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir: ”Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim!...Ona görə, ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb, olmamalıdır və olmayacaq. Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq.”

Bəli, Prezident İlham Əliyev ölkənin rəhbəri kimi 18 illik fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə əldə etdiyi bu misilsiz nailiyyətlər ümummilli lider Heydər Əliyev siyasətinin təntənəsi, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin xalqına olan sonsuz sevgisinin təcəssümüdür.

Xalqı ona görə cənab Prezidenti sevir ki, o, son 18 il ərzində ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xalq ona görə Prezidentini sevir ki, o, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diktəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində öz təsdiqini tapır. 2018-ci il 11 aprel Prezident seçkilərindən sonra bəyan etdiyi və tətbiqinə başladığı genişmiqyaslı və hərtərəfli islahatlar kursu sayəsində Azərbaycanın siması büsbütün dəyişməkdədir. Müasir, sivil, demokratik inkişaf yolunu seçmiş Azərbaycanın səsi dünya meridianlarında daha ucadan eşidilməkdədir. Heç bir fors-major vəziyyət arxasında xalqının dayandığı Prezident İlham Əliyevin hadisə və proseslərə prinsipial və qətiyyətli yanaşma tərzinə, preventiv, profilaktik, ardıcıl və sistemli qərar qəbuletmə məharətinə və sarsılmaz iradəsinə təsir edə bilməz.Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məqsədi Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası idi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün bərpası və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Xüsusilə də, Azərbaycanın haqqın, ərazi bütövlüyü uğrunda apardığı İkinci Vətən Müharibəsində Azərbaycan xalqının 30 illik həsrətinə 44 gün ərzində son qoymaqla bütün dünyaya sübut etdi ki, ”Dağlıq Qarabağ problemi yoxdur!” deməklə Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır! Çünki bu Qələbə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə güclü iqtisadiyyat, güclü dövlət, güclü ordu, rəşadətli əsgər və zabitlərimizin igidliyi ilə nail oldu. Dünya miqyasında öz xüsusi çəkisi, yeri olan Azərbaycan Prezidenti İlham Əliyev - haqqa, ədalətə gedən yolun qalib lideri, yeni bir tarix yazan sərkərdə 44 gün ərzində Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı. Bu Qələbə müstəqillik tariximizin ən parlaq səhifəsidir. Böyük Qələbə uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların nəticəsidir. Effektiv siyasət, xalqın dəstəyi və tarixi ədalət Azərbaycanı Qalib ölkəyə çevirdi. Məhz bu gün ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Ərazi bütövlüyümüzün bərpası işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılmasıdır. Bu qayıdış Böyük Qayıdış olmaqla təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına qayıdışını əhatə edəcəkdir. Qarabağ hər zaman bizim olub, bizimdir və hər zaman da bizim olacaq! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ HÜSEYNOVA***

## “Yeni Azərbaycan Partiyası üzvlərinin qeydiyyatının dəqiqləşdirilməsi üçün indiyədək xeyli işlər görülüb”



“Təşkilatlanma prosesi partiyamızda müxtəlif istiqamətlər üzrə aparılır. Burada ilk növbədə partiyanın Sədri tərəfindən müəyyən edilmiş yeni yanaşmalar əsasında çıxış edərək YAP-ın fəaliyyətinin institusional əsaslarının, normativ hüquqi bazasının formalaşdırılması istiqamətində işlər görülüb”. Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, Yeni Azərbaycan Partiyasında uçot sisteminin, partiya üzvlərinin qeydiyyatının dəqiqləşdirilməsi üçün xeyli işlər görülüb. Bu işlər bu gün də davam edir. Onun sözlərinə görə, partiyada bütün üzvlərin fərdi uçot sisteminin ən müasir tələblər səviyyəsində, informasiya-kommunikasiya texnologiyalarının bugünkü inkişaf mərhələsinə uyğun qurulmasına nail olunacaq.

YAP-ın yeni Proqramının da qəbul edildiyini xatırladan Mərkəzi Aparatın rəhbəri diqqətə çatdırıb ki, proqram məhz böyük Zəfərdən sonra ölkəmizin, xalqımızın qarşısında dayanan ən ümdə vəzifələrin bundan sonra həyata keçirilməsi istiqamətində partiyanın fəaliyyətini tənzimləyən bir sənəddir.

”Bütün bu işlərlə yanaşı təşkilatlanma işləri də həyata keçirilib. Ötən ilin sentyabr ayında partiyanın Bakı şəhəri üzrə, bu il yanvarın 28-də isə digər rayon və şəhər təşkilatlarımıza sədrlər təyin olunub. Bu barədə İdarə Heyəti tərəfindən müvafiq qərarlar qəbul edilib. Artıq fevral ayının 1-dən YAP-ın yerli təşkilatlarının sədrləri rəsmi qaydada fəaliyyətə başlayıblar. Bundan sonra onlar fəaliyyət göstərdikləri şəhər və rayonlarda mövcud vəziyyəti dərindən təhlil etməlidirlər. Bu, qarşıya qoyulan vəzifələrdən biridir. Qısa zamanda hər bir şəhər və rayonda təşkilatlanma işinin daha çevik və müasir tələblərə, partiyanın Sədrinin qarşıya qoyduğu vəzifələrə uyğun qurulması üçün onlar öz təkliflərini təqdim edəcəklər”,-deyə YAP Sədrinin müavini vurğulayıb.

## Hikmət Hacıyev: “Son 30 ildə Azərbaycan-ABŞ əlaqələri inkişaf, dostluq və tərəfdaşlıq baxımından uğurlu olub”

Son 30 ildə Azərbaycan-ABŞ əlaqələri inkişaf, dostluq və tərəfdaşlıq baxımından uğurlu olub. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ”Caspian Policy Center”in təşkil etdiyi ”ABŞ-Xəzər diplomatik münasibətlərinin 30 ili” mövzusunda vebinarda deyib.




H.Hacıyev qeyd edib ki, Azərbaycan 2001-ci il sentyabrın 11-də baş verən terror aktından sonra ABŞ-ın başlatdığı mübarizəyə hərbi və logistik dəstək göstərib. Azərbaycan son 30 ildə yaxşı dost olduğunu sübut edib. Bu dəstəyin regional təhlükəsizliyin vacib komponenti olduğu təsdiq edilib. Prezidentin köməkçisi, həmçinin Azərbaycanın ABŞ-a İraq və Əfqanıstandakı missiyalarda da dəstəyini vurğulayıb.

## Milli Məclis Şuşa Bəyannaməsini təsdiqləyib



Milli Məclis Azərbaycan ilə Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini təsdiqləyib. Belə ki, ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanun layihəsi fevralın 1-də Milli Məclisin plenar iclasında müzakirə edilib. Qeyd edək ki, Şuşa Bəyannaməsi 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Şuşa şəhərində imzalanıb.

Bundan başqa, ”Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təsdiq edilib. Dəyişikliyə əsasən, Qanunun 9.6-cı maddəsi yeni redaksiyada təklif olunur. Qanun layihəsinə görə, Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydası və təminat norması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Layihə Azərbaycanın ərazi bütövlüyü uğrunda 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək aparılan döyüş əməliyyatlarında əldə edilmiş təcrübə əsasında hazırlanıb. Məqsəd bütün növ qoşunların maddi-texniki bazasının ən yüksək səviyyədə təmin edilməsidir.

# Xalqın arzu və istəklərini gerçəkləşdirən partiya

**Yeni Azərbaycan Partiyası xalqın və dövlətin ən çətin günlərində, taleyüklü bir dönəmdə yaradıldı. Elə bir dövrdə ki, deklorativ müstəqilliyini elan edən Azərbaycan kompassız və yelkənsiz gəmini xatırladırdı. Dövləti dağılmaqdan qurtarmaq, düzgün inkişaf yolunu müəyyənləşdirmək, xalqı səfərbərliyə alaraq mövcud təhlükələri dəf etmək təxirəsalınmaz zərurətə çevrilmişdi. Maymaq və qorxaqların, səriştəsiz və təcrübəsizlərin ölkə rəhbərliyinə gəlməsi, naşı və uzağı görməyən siyasət yeritməsi, üstəlik, xalqın etimadını itirmələri ölkəni real fəlakət həddinə çatdırmışdı.**

Bu məqamda Azərbaycan xalqı öz taleyini yalnız yaxşı tanıdığı, sevdiyi və sınaqdan çıxardığı övladına etibar edə bilərdi.

Ulu Öndər Heydər Əliyev ona müraciət edən xalqın səsinə biganə qala bilməzdi. Çünki özü də vəziyyətin mürəkkəbliyini, Azərbaycana yönələn təhdidləri, nəinki müstəqilliyimizi, hətta dövlətimizi təqib edən real təhlükələri yaxşı görürdü. Lakin Azərbaycan artıq bazar iqtisadiyyatı və demokratik inkişaf yolunu seçdiyindən hakimiyyətə qayıdış da sivil, demokratik yolla gerçəkləşdirilə bilərdi.

Bir qrup ziyalının Ulu Öndərə müraciəti bu dahi şəxsiyyət tərəfindən müsbət qarşılandı. Beləliklə, yeni bir partiyanın - yeniləşməkdə qərarlı olan Azərbaycanın siyasi həyatında mühüm rol oynayacaq partiyanın quruculuğu prosesinə başlanıldı.

Partiyanın adını və rəmzini də Ulu Öndərimiz özü seçdi.

Azərbaycan xalqı Heydər Əliyevin adı ilə bağlı olan yeni bir partiyanın yaradılmasını böyük sevgi ilə qarşıladı. O dövr müxalifətçilərinin yaratdıqları bütün maneələrə, hədələrə və əngəllərə baxmayaraq, imzatoplama mərasimi respublikanın bütün guşələrində sürətlə getdi. İnsanlar böyük həvəslə yeni partiyaya üzv olacaqlarını imzaları ilə təsdiqləyirdilər. Xalqın arzularını və ümidlərini doğuracaq yeni partiya 22 noyabr 1992-ci ildə təsis konfransını keçirərək həyat vəsiqəsi aldı.

Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən bu konfransda YAP-ın proqram və nizamnaməsi də qəbul olundu.

Bu gün Azərbaycan müstəqil, hüquqi-demokratik və oturuşmuş bir dövlətdir. Onun yeni Konstitusiyası qəbul olunmuş, demokratik təsisatları yaradılmışdır. Hakimiyyət bölgüsü aparılmış, dünya dövlətləri, beynəlxalq qurum və təşkilatlarla bərabərhüquqlu münasibətlər qurulmuşdur. Azərbaycan milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür, öz sözünü aydın və ucadan deyir. Artıq dövlətimiz yerləşdiyi regionda və dünyada böyük nüfuz sahibinə çevrilib, hətta ən ağır və mürəkkəb problemi olan Qarabağ münaqişəsini də 44 günlük Zəfər müharibəsi ilə həll edib!

Yeni Azərbaycan Partiyası yaradılanda isə bütün bunların hamısı arzu, çatılası çətin və uzaq görünən hədəflər idi. Üstəlik, YAP-ın özü belə müxalifət partiyası, iqtidara gəlmək iddiasında olan partiya sayılırdı. Proqramında isə bütün bunların hamısı əhatəli və dəqiqliklə göstərilmişdi.

Yeri gəlmişkən, bir vacib məqamı da qeyd edək. YAP müxalifət partiyası kimi fəaliyyət göstərdiyi müddətdə əsl müxalifət partiyası necə olar və nə sayaq səmərəli çalışa bilər nümunəsini də ortaya qoydu.

YAP bir dəfə də dağıdıcılıqla məşğul olmadı, milli maraqların əleyhinə getmədi, hakimiyyətə gəlmək naminə xalqın maraqlarına, dövlətin mənafeyinə qarşı çıxmadı, onun imicinə və təhlükəsizliyinə xələl gətirəcək addımlar atmadı. Açıq mübarizə apardı, demokratik prinsipləri pozmadı, qanunların tələblərinə ciddi əməl etdi.

Bu gün Cənubi Qafqazın ən böyük partiyası olan YAP-ın yüksək nüfuzunun səbəblərindən biri də müxalifətdə olanda və sonrakı dövrlərdə demokratiyanın və qanunun tələblərinə dönmədən əməl etməsi, milli maraqları daim öndə tutması, quruculuqla məşğul olması, xalqın istəklərini mərhələlərlə gerçəkləşdirməsidir.

Yeni Azərbaycan Partiyasının özəlliklərindən biri də odur ki, partiya iqtidara öncə seçkilər yolu ilə gəlmədi. Xalqın çağırışı ilə müstəqilliyimizi məhvolma, Azərbaycanı isə kiçik xanlıqlara bölünmə təhlükəsindən xilas etmək üçün Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı. 4 ay sonra keçirilən seçkilərdə isə xalqın birmənalı mütləq dəstəyi ilə YAP sədri Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti seçildi. Beləliklə, YAP da iqtidar partiyasına çevrildi. Əslində, Yeni Azərbaycan Partiyasının proqramında qoyulan bütün hədəflər və vəzifələr müstəqil Azərbaycan dövlətinin qarşısında duran və həllini gözləyən problem və vəzifələrlə tam üst-üstə düşürdü. Başqa sözlə, mahiyyətcə dövlətin və partiyanın yaxın və uzaq hədəfləri eyni idi.

Artıq həmin hədəflərin, demək olar ki, hamısı fəth olunmuşdur. Dövlət idarəçiliyində varislik, müstəqillik, qanunçuluq, vətəndaş həmrəyliyi, konstruktiv əməkdaşlıq, sosial ədalətin bərpası prinsipləri uğurla həyata keçirilmişdir. Bu gün xalqımızı birləşdirən azərbaycançılıq ideologiyası həyat tərzimizə çevrilmiş, 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəni təmin edən başlıca amillərdən biri olmuşdur.

Ötən 30 ildə Azərbaycan cəmiyyətində də çox böyük dəyişikliklər baş vermiş, Azərbaycan bütün mənalarda - həm mahiyyətcə, həm də quruculuq baxımından çoxsaylı nailiyyətlər qazanmışdır. Hakimiyyət bölgüsü aparılmış, Milli Məclisə və yerli özünüidarə orqanlarına çoxsaylı demokratik seçkilər keçirilmiş, müasir parlament ənənələri formalaşmış, ölkə başdan-başa yenidən tikilib qurulmuş, Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevrilmişdir. Bütün bu nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının və onun üzvlərinin də danılmaz fəaliyyəti, zəhmət payı vardır.

Bütövlükdə, fəaliyyətə başladığı ilk günlərdən ”Yeni, müstəqil Azərbaycan uğrunda” çağırışını özünə deviz seçən YAP Ulu Öndərimizin apardığı müdrik, uzaqgörən, məqsədyönlü və dəqiq hədəflərə hesablanmış siyasət nəticəsində xalqın etimadını doğrultdu, müstəqilliyimizin əbədiliyə və dönməzliyə çevrilməsinə, dövlətimizin nüfuz və qüdrətinin yüksəlməsinə sanballı töhfələr verdi.

Həyat bir yerdə dayanmır, daim inkişaf edir, yeni çağırışlar və sınaqlar meydana gəlir. Cənab İlham Əliyevin YAP-ın I qurultayında partiyanın sədr müavini, daha sonralar isə birinci müavini və sədri seçilməsi təşkilatın həyatında böyük siyasi hadisə oldu. Siyasi varislik ənənəsinə sadiq qalaraq prezidentliyi və partiyaya rəhbərliyi dövründə Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev dövlətin və partiyanın inkişafı istiqamətində möhtəşəm uğurlara imza atdı. ”Müasir, qüdrətli və zəngin Azərbaycan naminə” çağırışını irəli sürməklə bərabər, onun reallaşmasına dəyərli töhfələrini də verdi. Tarixən qısa bir dövrdə Azərbaycan özünün enerji və nəqliyyat təhlükəsizliyini təmin etdi, öz imkanları hesabına nəhəng transmilli layihələr reallaşdırdı, üstəlik, Avropanın enerji təchizatında etibarlı tərəfdaşa çevrildi.

Bu gün Azərbaycan dünyada həm də müasir demokratik imici olan ölkə, logistika mərkəzi, mühüm nəqliyyat dəhlizinin keçidi məkan sayılır. İnkişaf, dəyişiklik və yeniləşmə bütün sferanı əhatə etmiş, insanların, dövlətin həyatında, ictimai-siyasi proseslərdə dərin iz buraxmışdır. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, son 30 il ərzində Azərbaycan əsrə bərabər inkişaf yolu keçmişdir. Paytaxt Bakı yenidən, əsaslı şəkildə təzədən tikilib qurulmuş, ərazisi genişlənmiş, yeni küçə və xiyabanlar, məhəllələr salınmış, gözəl memarlıq nümunələri ilə bəzədilmişdir. Bakının gözəlliyi buraya gələn qonaqları valeh edir, barəsində ən xoş təriflər səsləndirilir. Ölkə paytaxtı həm də nüfuzlu beynəlxalq tədbirlərin, bəşəriyyətin taleyi ilə bağlı mühüm və qlobal problemlərin müzakirə olunduğu nüfuzlu tədbirlərin keçirildiyi məkan hüququnu da qazanmışdır. Paytaxtımız həm də ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyununun, habelə Avropa və dünya birinciliklərinin, nüfuzlu beynəlxalq idman yarışlarının keçirildiyi ən arzuolunan məkan statusunu da qazanmışdır. Bu, təkcə zəruri idman arena və qurğularının mövcudluğu ilə deyil, həm də möhtəşəm tədbirlərin uğurlu təşkili təcrübəsi və xalqımızın qonaqpərvərliyi ilə də bağlıdır.

İndiyədək regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət tərəfindən qəbul edilən dörd dövlət proqramının qəbulu və icrası isə Azərbaycanın bütün bölgə və guşələrinin hərtərəfli inkişafını təmin etmişdir. Bu gün paytaxt Bakıdan çıxaraq respublikanın hansı regionuna üz tutsan, rahat yolların, bir-birindən yaraşıqlı fərdi və ictimai binaların, evlərin tikildiyinin, park və meydanlar salındığının, olimpiya idman komplekslərinin, ”Asan xidmət” mərkəzlərinin inşasının şahidi olarsan.

Kəndarası yolların təmiri, yenidən qurulması və təzələrinin çəkilməsi prosesi əsasən başa çatmış, qazlaşdırma isə yekunlaşmaq üzrədir. Regionlarda kənd təsərrüfatının inkişafı ilə yanaşı, sənaye müəssisələrinin açılışına, yeni iş yerlərinin yaradılmasına xüsusi diqqət yetirilir. Sahibkarlığın inkişafına dövlət tərəfindən daim dəstək verilir, emal müəssisələrinin yaradılması, fermerlərə güzəştli şərtlərlə gübrə satışı və subsidiyalar ödənilməsi təmin olunur.

Qazanılan nailiyyətlər sırasında multikultural dəyərlərin qorunması və inkişafı xüsusi yer tutur.

Azərbaycan tarixən çoxmillətli və çoxkonfessiyalı olub. Bu zənginlik və rəngarənglik dövlətin və mədəniyyətin inkişafına dəyərli töhfələr verib. Ulu Öndər Heydər Əliyevin ”Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq” tezisi daim qüvvədədir və gündəlik həyatımızda özünü təsdiq edir. Bir-birinin dini dəyərlərinə, mədəniyyətinə qarşılıqlı hörmət, maneyə və çətinliklərin birlikdə dəf edilməsi, yad ünsürlərə və düşmənə qarşı birgə mübarizə uğur və qələbələri artıran məqamlardandır. Dünyada milli və etnik zəmində qarşıdurma baş verdiyi, ikili standartların mövcudluğu şəraitində Azərbaycan xalqının bu birliyi hamı üçün nümunəyə çevrilmişdir. Özünün qədim və tarixi multikultural dəyərləri ilə dünyaya çıxan Azərbaycan bu sahədə örnəkdir. Artıq bütün dünya bunu görür, bilir və öyrənməyə çalışır.

Azərbaycan xalqının son illərdə qürur duyduğu məqamlardan biri də milli birliyin təmini və taleyüklü məsələlərin həllində bu birliyin mühüm amillərdən birinə çevrilməsidir.

Ötən otuz ildə ölkəmizdə mətbuat və söz azadlığı, insan haqlarının qorunması təmin olunmuş, çoxpartiyalı sistemə keçid baş vermiş, fikir plüralizmi bərpa edilmişdir. Azərbaycanda qəzet təsis etmək, sayt açmaq, partiya yaratmaq yolunda bütün bürokratik əngəllər aradan qaldırılmışdır. İnsanlar öz fikirlərini sərbəst ifadə edir, mövqe və mülahizələrini çəkinmədən bildirirlər.

İnternet istifadəçilərinin sayının ölkə əhalisinin 90 faizi civarında olması, sosial şəbəkələrdə istənilən fikrin maneəsiz söylənməsi, hətta bəzən ölkə vətəndaşlarının məsuliyyətsiz söz azadlığından əziyyət çəkməsi belə günümüzün yeni reallıqlarındandır. Lakin Azərbaycanın hazırkı iqtidarı bu sahədə heç zaman heç bir məhdudiyyət tətbiq etmir və etməyəcəkdir. Yeganə istək hamının demokratik prinsiplərlə yanaşı, qanunun aliliyinə də hörmətlə yanaşmasıdır.

Şübhəsiz, ötən 30 ilin ən böyük uğur və nailiyyəti iki əsrdir davam edən Qarabağ münaqişəsinin qələbə ilə həlli, alçaq ermənilərin doğma torpaqlarımızdan qovularaq ərazi bütövlüyümüzün bərpasıdır!

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin möcüzə təsiri bağışlayan qələbəsi bütün dünyada şok effekti doğurdu, Azərbaycan xalqına mübariz, döyüşkən, qəhrəman xalq kimi sonsuz hörmət qazandırdı.

Əslində, Qarabağ uğrunda Vətən müharibəsindəki möhtəşəm qələbə Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə 30 ildə Azərbaycan dövlətinin və cəmiyyətinin keçdiyi yolun, bütün sahələrdə qazandığı nailiyyətlərin yekunu, həm də qiymətləndirilməsi sayıla bilər!

Bu qələbə göstərdi ki, Heydər Əliyev yolu yeganə doğru yoldur ki, ölkənin milli maraqlarını qorumağı və təminini, sürətli və davamlı inkişafını, ən çətin və mürəkkəb problemlərin uğurlu həllini təmin edə bilir.

Bu qələbə göstərdi ki, müstəqil Azərbaycan düzgün istiqamət tutaraq vaxtında zəruri islahatların aparılmasını, xalqın sosial rifahının durmadan yaxşılaşdırılmasını və vətəndaş məmnunluğunu təmin etməklə qısa müddətdə möcüzələr belə yaratmağa qadirdir!

Bu qələbə göstərdi ki, YAP-ın rəhbərliyi və fəaliyyəti, azərbaycançılıq ideologiyasının real həyatda yer tutması, gənc nəslin təlim-tərbiyəsinin düzgün qurulması və ölkə daxilindəki bütün sağlam qüvvələrin bir istiqamətə yönəldilməsi sayəsində yeni vətənpərvər gənclər nəsli yetişdirmək, mətin və güclü ordu qurmaqla ən mənfur düşməni belə qısa zamanda məhv etmək mümkündür!

Bu qələbə göstərdi ki, xalqın sevdiyi və güvəndiyi rəhbər, ölkə vətəndaşlarının arzu, istək və maraqlarının ifadəçisi olan partiya öz qarşısına ən çətin və mürəkkəb vəzifələri qoyduqda belə cəmiyyətin böyük əksəriyyətini təşkil edən sağlam qüvvələri təşkil edən sağlam qüvvələri təşkil edən sağlam qüvvələri səfərbər etmək və dəqiq hədəflərə çatmağa nail olur.

Öz proqramında "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını irəli sürən Yeni Azərbaycan Partiyası xalqın birliyi və doğru inkişaf yolu hesabına tarixən qısa müddətdə bütün məqsədlərinə nail oldu! Həm müasir, hüquqi-demokratik dövlət quruldu, həm də Azərbaycan xalqının seçdiyi və arzuladığı cəmiyyət formalaşdırıldı.

Həyat yerində durmur, daim inkişaf edir, yenilənir! Bu yeniləşmə öz sıralarında 800 min nəfərə yaxın üzvü birləşdirən, daim inkişafa, yeniliyə və mütərəqqi dəyişikliklərə can atan partiyadan da yan keçə bilməz! YAP-ın uğurlarını təmin edən ən mühüm məqamlardan biri də məhz budur ki, o, daim hər yeniliyə açıqdır, qlobal çağırışlara cavab verməyə, hadisələri qabaqlamağa hazır və qadirdir!

Bütün bunlar nəzərə alınmaqla partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə yeni proqram işlənib hazırlanmış və təsdiq edilmişdir.

Budəfəki deviz isə partiyamızın möhtərəm sədri cənab İlham Əliyev tərəfindən Vətən müharibəsi dövründə irəli sürülən, xalqın milli və monolit birliyinə səbəb olan "Biz birlikdə güclüyük!" devizidir!

Bəli, Yeni Azərbaycan Partiyası öz gücünü xalqdan alır, öz hədəflərinə xalqın birliyi və dəstəyi sayəsində nail olur!

Yeni proqramda əvvəlki dövrdə qələbəyə gətirən ideya-siyasi, nəzəri təcrübənin, habelə nailiyyətlərə çatdıran üsul və vasitələrin, sınaqdan çıxmış metodların davam etdirilməsi nəzərdə tutulur. Başqa sözlə, ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən ideoloji vasitələr də qorunub saxlanılır.

Partiyanın yeni proqramı beş fəsildən ibarətdir. "Partiyanın inkişafı və uğurları" adlanan birinci fəsildə YAP-ın inkişaf yoluna nəzər salınır. Konkret faktlar və misallar əsasında, yığcam şəkildə YAP-ın qət etdiyi uğurlu yoldakı ürəkaçan nailiyyətlər sadalanır. Eyni zamanda yeni proqramın prizmasından gələcəyə də baxılır: "YAP-ın VII qurultayı (5 mart 2021-ci il) Azərbaycanın davamlı inkişafı və müasir dövrün çağırışları kontekstində partiyanın qarşısına yeni vəzifələr qoyur. Cəmiyyətin və dövlətin müxtəlif sahələrini əhatə edən islahatların aparılmasında, yeni siyasi konfiqurasiyanın yaradılmasında və siyasi dialoqun dərinləşməsində yaxından iştirak etmək partiya üzvlərindən yüksək fəallıq tələb edir. VII qurultayda bir daha aydın oldu ki, YAP Azərbaycanın hərtərəfli inkişafına töhfə verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malikdir. Bu isə partiyanın məqsəd və vəzifələrini gələcəkdə də şərəflə yerinə yetirəcəyini şərtləndirir".

"Siyasi dəyərlər və prinsiplər" adlanan ikinci fəsildə Heydər Əliyev yolunun mahiyyəti və xüsusiyyətləri yığcam və əsaslı şəkildə təhlil olunur. Burada "Heydər Əliyev yolu" nədir sualına da tam cavab tapa bilərik.

"Heydər Əliyev yolu:

* milli maraqların üstünlüyü;

* güclü, müstəqil, hüquqi, demokratik dövlət;

* inkişaf edən şaxələndirilmiş iqtisadiyyat;

* idarəçilikdə və milli ideologiyada varislik;

* azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm, tolerantlıq kimi dəyərlər üzərində qurulub".

Bu yolun əsas üstünlüklərindən biri də budur ki, milli çağırışların qlobal çağırışlarla uzlaşdırılmasını təmin edir.

Üçüncü fəsildə "Partiyadaxili münasibətlərin və partiyanın əsasları"ndan danışılır, peşəkarlıq, işgüzar münasibətlər, sağlam rəqabət, innovativ inkişaf və kreativlik, elmlik, müasirlik prinsipləri və digərləri önə çəkilir. Bu tələblərin hər birinin vacibliyi göstərilir, əhəmiyyəti vurğulanır: "Yaradıcı təfəkkür, kreativ düşüncə, təşəbbüskarlıq və innovativ inkişaf müasir dünyada peşəkar fəaliyyət meyarıdır. Səmərəlilik, rasionallıq, çeviklik, müasirlik və aktuallıqla səciyyələnən kreativ yanaşma siyasi münasibətlərə də sirayət edir.

Özündə siyasi baxışları əks etdirən konseptual sənədlərin hazırlanmasında, siyasi müzakirələrin və təbliğat xarakterli tədbirlərin təşkilində kreativ yanaşma xüsusi yer tutur.

Müasir dövrdə rəqəmsal texnologiyaların müxtəlif sahələrdə, o cümlədən siyasətdə təsiri artacaqdır. Dünyada sürətlə gedən rəqəmsal transformasiya prosesləri və inkişaf edən "rəqəmsal cəmiyyət" formasiyası konkret sahələr üzrə tədricən yeni fəaliyyət qaydaları yaradacaqdır".

"Partiyanın əsas hədəfləri" fəsli öz əhatəliyinə və genişliyinə görə diqqəti cəlb edir. Bu fəsildə "Heydər Əliyev irsinin təbliği və təşviqi", "Güclü iqtisadiyyat və davamlı inkişaf", "İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı", "Vətəndaş cəmiyyətinin inkişafı", "Ordu quruculuğu", "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış" və digər vacib bölmələr vardır.

Yeni Azərbaycan partiyasını digər partiyalardan fərqləndirən əsas xüsusiyyətlərdən biri də odur ki, partiya yaxın və perspektiv müddətdə dövlətin qarşısında duran hədəflərə çatılmasını özünün prioriteti hesab edir, bütün imkanlarını səfərbərliyə alaraq qüvvələri problemlərin daha tez və səmərəli, uğurlu həllinə yönəldir. Başqa sözlə, partiya resurslarını dövləti vəzifələrinin yerinə yetirilməsinə müvəffəqiyyətlə tətbiq etməyi bacarır.

Hazırkı mərhələdə əsas məqamlardan biri Vətən müharibəsindən qələbə ilə çıxmış dövlətin Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışını təmin etməsidir.

Şübhəsiz, YAP bu prosesdən kənarda qala bilməz. Odur ki, yeni proqramda iqtidar partiyasının bu sahədə qarşıya qoyduğu vəzifələr də əksini tapıb:

" * layiqli yaşayışın bərpası üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması;

* bu ərazilərin ölkənin ən abad guşələrindən birinə çevrilməsi;

* bu ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi;

* regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması;

* regionun sürətli iqtisadi inkişafının təmin olunması üçün stimullaşdırıcı tədbirlərin görülməsi;

* "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının hazırlanması və həyata keçirilməsi".

Beşinci fəsil lakonikliyi ilə diqqəti cəlb edir.

"Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" adlanan bu fəsildə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazandığı zəfərdə onun güclü liderlik keyfiyyətlərinin, yüksək intellekti və diplomatik məharətinin, qətiyyət və prinsipiallığının, xarici siyasətdə qazandığı nailiyyətlərin mühüm rol oynaması xüsusi vurğulanır. Xalqımız üçün bu ağır sınaq dövründə xalq-dövlət birliyinin, milli həmrəyliyin mövcudluğu və möhkəmliyi şanlı qələbəni təmin edən mühüm amillərdən biri olduğu göstərilir.

YAP-ın ümumxalq partiyası olması onu gələcəkdə də aparıcı siyasi qüvvə kimi gücləndirən meyardır, partiyada tanınmış ziyalılar, elm, mədəniyyət, incəsənət xadimləri, gənclər və qadınlar, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinin geniş şəkildə təmsil olunması xalqımızın Heydər Əliyevin yaratdığı partiyaya böyük etimadının ifadəsidir.

Dünya sürətlə dəyişir, qloballaşma prosesi yeni çağırışlara meydan açır. Bu inkişaf və yenilənmə dövründə İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan daim öz maraqlarını qorumağı, xalqın sosial rifahını yüksəltməyi, müstəqil dövlətimizi tərəqqi yolu ilə uğurla aparmağı bacarır. Azərbaycan xalqı əmindir ki, xalq-iqtidar birliyi, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi sayəsində yeni hədəflər də fəth olunacaq, daim yenilənən Yeni Azərbaycan Partiyası yeni proqramda qarşıya qoyduğu vəzifələri şərəflə yerinə yetirəcəkdir!

***Bəxtiyar Sadıqov***
***Milli Məclisin deputatı***

ŞƏRH + AKTUAL

İsrailin nüfuzlu Jerusalem Post nəşri Türkiyə ilə İsrailin yaxınlaşması imkanlarından bəhs edən məqalə ilə çıxış edib. Məqalədə bildirilir ki, Türkiyə İsraillə birlikdə sülhə doğru hərəkat mübarizəsinin bərpa edilməsi yönündə yeni addımlar atmaq marağını nümayiş etdirir. Bildirilir ki, Ərdoğan İsrail-Türkiyə enerji işbirliyi istiqamətindəki mümkünlük məsələsinə də toxunub, eləcə də Türkiyənin prezidenti ötən ilin dekabrının sonlarında İslam ölkələrinin ravvinlər Alyansının liderləri ilə görüş keçirib, həmçinin, antisemitizmi insanlığa qarşı cinayət adlandırıb.

**"Azərbaycan İsraillə Türkiyə arasında sülhün əldə olunmasında həlledici açar rolunu oynaya bilər"**

# Jerusalem Post Türkiyə-İsrail münasibətlərində Azərbaycanın mühüm rolundan yazdı

## *İsrail nəşri: "Türkiyə ilə sülhə şans vermək İsrailin marağındadır"*

Jerusalem Post-da o da bildirilir ki, 2016-cı ildə Mavi Marmara insidentindən sonra əldə edilən barışıq Qüds və Ankaraya isti münasibətlər fonundakı sülhə səbəb olmayıb. "Qəzzada baş verən hər eskalasiya İsraillə Türkiyə arasında gərginliyi artırır və yaxınlaşma prosesinə öz mənfi təsirlərini göstərir", qeyd edən İsrail nəşri onu da bildirib ki, İsrail Türkiyə ilə münasibətlərinin bərpasına incəliklə yanaşır və Türkiyə ilə sülhə şans vermək İsrailin də marağındadır: "Bəzi skeptizm dərəcələri anlaşılandır. Lakin buna baxmayaraq, Yaxın Şərqdə dəyişən dinamika istər-istəməz belə bir sualı yaradır ki, axı nəyə görə dünyaya şans verilməsin?", deyə yəhudi nəşri sual edir və sülhün əldə olunmasının vacibliyinə işarə vurur.

Lakin məqalənin ən maraqlı məqamlarından bidiri də budur ki, İsrail nəşri Türkiyə ilə İsrailin yaxınlaşması yönündə Azərbaycanın ala biləcəyi rolunu əhəmiyyətli dərəcədə qiymətləndirib. "Azərbaycan İsraillə Türkiyə arasında sülhün əldə olunmasında həlledici açar rolunu oynaya bilər", Jerusalem Post-da xüsusilə vurğulanır. SİTAT: "Türkiyə və İsraillə ilə sıx münasibətlərdə olan azsaylı ölkələrdən biri kimi Azərbaycan sülh prosesinin müxtəlif iştirakçıları üçün potensial komfortunu yaratması istiqsmətində öz səylərini nümayiş etdirib".

**Yəhudi nəşri yazır ki, Bakıda Azərbaycan, Türkiyə və İsrail sammiti keçirilə bilər**

"2021-ci ilin aprelində Azərbaycan Prezidentinin xarici siyasət üzrə köməkçisi Hikmət Hacıyev bəyan etdi ki, Bakı Türkiyə və İsraillə üçtərəfli sammit keçirməyə hazırdır", adıçəkilən nəşr yazıb. Bununla yanaşı, Jerusalem Post xatırladır ki, hətta diplomatik münasibətlərindəki gərginliklərinə rəğmən, Qüds və Ankara birbirlərinin iqtisadi münasibətlərini dəstəkləyirlər: "Türkiyənin İsrailə ixracı aylıq maksimumda rekord həddə - 2021-ci ildə 595 milyon dollara çatıb. İsraillə Türkiyə arasında ılıq münasibətlərin əsası da var və Avraamın razılaşmaları göstərdi ki, bu proses vəsaitlərin yatırılmasına dəyər. Türkiyə ilə sülhə şans verməklə İsrail və onun tərəfdarları regiondakı yeniliklərin dəyişdirilməsinə etimadlarını nümayiş etdirirlər", Jerusalem Post nəşri mövzu ilə bağlı məqalədə vurğulanır.

***Rövşən RƏSULOV***

# Gəncəyə edilən terror erməni faşizminin əsl simasıdır

**İngilis səyyahı Vilson ermənilər haqqında deyib: ”Ermənilər acgöz və tamahkardırlar. Onlar istənilən bir cəfəngiyatı böyütmək üzrə abırsız dərəcədə mahirdirlər və intriqaları sevirlər”. Bu gün bu alçaq, abırsız faşist xislətli təcavüzkar olmaqla yanaşı qorxaq və rəzil olan Ermənistanın savadsız, sərsəm, xəstə təxəyyüllü baş naziri Nikol Paşinyanın 2020-ci ilin sentyabr ayının 27-si səhər saat 6.00-da Azərbaycana qarşı işğalçılıq siyasəti bir daha Nikolun faşist mahiyyətini bütün dünyaya göstərdi.**

Oktyabrın 10-dan 11-nə keçən gecə saat 2 radələrində Ermənistanın dinc sakinlərin yatdığı bir vaxtda cəbhə bölgəsindən 100 km uzaq olan Gəncə şəhərinə raket atması bir daha sübut edir ki, terrorçu dövlətin anti- insani, faşist simasını ifşa etdi. Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskva görüşü nəticəsində elan edilən humanitar atəşkəsi pozmas riyakarlıqdan başqa bir şey deyildi. Humanitar atəşkəslə bağlı razılaşmadan sonra Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncə şəhərinə bir neçə dəfə atəş tutulması barbarlığın daha bir bariz nümunəsidir.

Prezident İlham Əliyev Gəncədə səfərdə olarkən AZƏRTAC-a müsahibəsində İkinci Qarabağ müharibəsi dövründə Gəncənin dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalandığını bildirərək bütün dünya onların faşist xislətli olduğunun şahidi olduğunu bildirib: ”Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm ”Toçka-U”, həm ”SCUD” raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır”.

Dövlət başçısı onu da bildirib ki, həmişə ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevriliblər: ”Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni, bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı”.



**Prezident İlham Əliyev: "Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq"**








## “Bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır”

Dövlət başçısı müsahibəsi zamanı vurğulayıb ki, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır: ”Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir”.

Bəli, bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür, Azərbaycan xalqının böyüklüyü, siyasətimizin düzgünlüyüdür. Çünki Ermənistanın bu siyasəti işğalçı ölkə üçün həmişə böyük təhlükə mənbəyidir. Və bu gün Ermənistan ərazisindən atılan raketlə Gəncədə yaşayış binasının atəşə tutulması, çox sayda dinc sakinlərin qətlə yetirilməsi vandalizmin, vəhşiliyin son həddidir. Ancaq Azərbaycan həm beynəlxalq hüquq, həm də ədalət baxımından haqq yolundadır. Çünki Azrbaycan mülki əhali ilə müharibə aparmır.

## “Biz öz torpaqlarımızda vuruşuruq, Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır!”

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daim vurğuladığı kimi, ”Biz öz torpaqlarımızda vuruşuruq, Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır!” Bu sözlər reallığını diplomatiyanın gedişində də öz əksini tapır. Çünki biz heç bir zaman beynəlxalq hüquqları pozmur və insani dəyərlərə qiymət verərək müharibəmizi aparırıq. Ordumuz doğma torpaqlarımızın azadetmə missiyasını davam etdirir. Azərbaycan xalqı öz haqq müharibəsini aparır. Torpaqlarımızın azad olunmasında israrlıyıq və bu missiyadan xalqımızı heç kəs döndərə bilməz. Dövlət başçımız, Ali Baş Komandanımız İlham Əliyev cənabları bütün çıxışlarında dönə-dönə bildirib: ”Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Bəli, bu gün hər birimiz o tarixi anları yaşayırıq və Liderimizin ətrafında tükənməz ruh yüksəkliyi ilə birləşmişik və hər an canımızdan, qanımızdan keçməyə hazırıq. Qarabağ Azərbaycandır və bayrağımız bütün işğal altından azad olunacaq ərazilərində qürurla dalğalanır. Düşmən isə bütün müvafiq qanunlar qarşısında törətdiyi cinayətlərinə görə cavab verəcək, mütləq cavab verəcək. Buna heç kimin şübhəsi olmasın.

***RƏFİQƏ HÜSEYNOVA***

# İvan Pyatibratov:
## “Görünür, 3-cü tərəflər olmadan demarkasiya prosesi başlamayacaq”




Rusiyalı politoloq, Siyasi İnformasiya Mərkəzinin aparıcı analitiki İvan Pyatibratov "Caliber.Az-a müsahibəsində Cənubi Qafqazda gedən proseslərlə bağlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

*- Cənubi Qafqazda münaqişədən sonrakı dövrü necə qiymətləndirirsiniz?*

- Məncə, pis sülh yaxşı müharibədən yaxşıdır. Ona görə də hesab edirəm ki, bu gün regionda vəziyyət qənaətbəxşdir. Açıq və kütləvi döyüşlərin olmaması, pisyaxşı diplomatik prosesin getməsi ən azı, böyük nailiyyətdir. Qüvvələrin uyğunlaşdırılmasına gəlincə, hər şey 2020-ci il üçün üçtərəfli atəşkəs bəyanatında qeyd olunub. Azərbaycan özünün geosiyasi potensialını artırır. Eyni zamanda, bu hadisələrin fonunda Azərbaycanla Türkiyə arasında əlavə yaxınlaşma baş verdi ki, bu da indi tam səmimi şəkildə müttəfiq dövlətlər adlandırıla bilər.

*- Ermənistan tərəfdən Azərbaycanla sülhə doğru əməli addımlara hazır olmaq hələlik görünmür. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı proqnozunuz necədir?*

- Təəssüf ki, bu gün normallaşmadan söhbət getmir. Hər iki tərəf nizamlamanın və dinc yanaşı yaşamağın vacibliyindən danışır, amma reallıqda biz ölkələr arasında sərhəddə növbəti atışmanın baş verdiyini görürük. Eyni zamanda, insidentdən sonra tərəflər, sadəcə olaraq, qarşılıqlı ittihamlar səsləndiriblər. Aydındır ki, belə şəraitdə ölkələr arasında sülhdən söhbət gedə bilməz. Ona görə də zamanla bağlı danışmaq son dərəcə çətindir. Görünən odur ki, həm Azərbaycan, həm də Ermənistan üçün məhsuldar təmas yaratmaq prosesi ağrılıdır.

*- Bununla belə, 10 noyabr 2020-ci il tarixli üçtərəfli atəşkəs bəyanatı İrəvanı Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası və delimitasiyasına başlamağa məcbur edir. Bu proses necə gedəcək?*

- Hesab edirəm ki, sərhədlərin demarkasiyasının nə vaxt baş tutacağı ritorik sualdır, çünki atışmalar davam edir. Bəyanatlar səviyyəsində hər iki tərəf prosesə hazırdır. Amma Azərbaycanla Ermənistan arasında artıq qeyd etdiyim münasibətlərin kəskinləşməsi səbəbindən proses ləngiyə bilər. Hələ başlamayıb. Mən görürəm ki, bu proses üçüncü tərəflər olmadan başlamayacaq, Rusiya və Türkiyə bunda mütləq iştirak edəcək. Amma başa düşmək lazımdır ki, Azərbaycan və Ermənistan rəhbərliyinin iradəsi olmasa, heç kim məsələnin həllinə töhfə verə bilməz.

*- Türkiyə-Rusiya-Azərbaycan üçbucağında olan ölkələrin münasibətləri necə inkişaf edəcək?*

- Qazaxıstanda baş verənlər Qarabağda vəziyyətin normallaşdırılması gündəmini bir qədər arxa plana keçirdi, lakin mən hesab edirəm ki, yaxın gələcəkdə 3 dövlət arasında münasibətlərdə əsas məsələ məhz Azərbaycan və Ermənistan sərhədindəki vəziyyət problemidir. Bütövlükdə ölkələrimiz arasında, o cümlədən iqtisadi sahədə əlaqələrin intensivliyinin artması tendensiyası davam edir. Hansı ki, bu da regiondakı vəziyyətdən asılıdır.

*- Türkiyənin Rusiya Federasiyası ilə Ukrayna arasında münasibətlərin normallaşmasına yardım etmək təşəbbüsünü necə qiymətləndirirsiniz?*

- Skeptik. Bu, Türkiyənin beynəlxalq aləmdə əhəmiyyətini nümayiş etdirərək regionda təsirini artırmaq cəhdidir. Əslində, Türkiyənin bu prosesdə imkanları son dərəcə məhduddur, istifadə olunan ritorikanın Rusiya tərəfinə o qədər də uyğun gəlmədiyini demirəm. Burada isə NATO blokunun üzvü olan ölkə faktorunu nəzərə almalıyıq.

*Tərcümə - Elçin Bayramlı*



## Hacı Nuran ilk dəfə doğum günündə rəqs etdi

**Tanınmış aparıcı və xeyriyyəçi Hacı Nuran doğum gününü Atlas Tibb Mərkəzinin həkim heyəti ilə birlikdə qeyd edib. SİA-nın verdiyi məlumata görə, səbəbkarı doğum günü münasibəti ilə yaxın dostu, Qorqud Holdinqin 1-ci vitse-prezidenti Nihat Əliyev təbrik edib.**



Xatırladaq ki, Atlas Tibb Mərkəzi Azərbaycanın uzun illərdir fəaliyyət göstərən yüksək səviyyəli tibb mərkəzlərindən biridir. Daima yeniliklərə açıq olan, dinamik işçi heyyəti və son dərəcə peşəkar həkimləri ilə fərqlənir. Bundan əlavə, Atlas klinikasının rəhbərliyi və həkim heyyəti hər zaman xalqın diqqət və qayğıya ehtiyac duyan təbəqələrinə də xüsusi nəzakətlə yaşanır.

Xeyriyyəçiliyi ilə tanınan Hacı Nuran və Nihat Əliyevin dostluğunun təməlində illərə söykənən dərin dostluq və qardaşlıq münasibəti, sonsuz güvən və sədaqət dayanır. Elə bu səmimi münasibətə əsaslanaraq Hacı Nuran Atlas Tibb Mərkəzinin həkim heyətinin səbəbkar üçün hazırladığı xüsusi doğum günündə ilk dəfə rəqs edib. Səbəbkar doğum günündə Qorqud Holdingin 1-ci vitse-prezidenti Nihad Əliyevə və işçi komandasına dərin təşəkkürünü bildirib.

*Kəmalə Təyyarqızı*

# Azərbaycanda balığın qiyməti bahalaşır?

**“Balıq ən qidalı ərzaq məhsullarından biridir. Həmçinin, balıq ən təhlükəli və risk qrupuna daxil olan məhsuldur”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, balıq xüsusi saxlanma şəraitində olmalıdır: ”Soyuq zəncirlə birmənalı şəkildə istehlakçının süfrəsinə gəlməlidir. Yəni, balığın keyfiyyəti hər an itə bilər”.**



Eyyub Hüseynov sözlərinə belə davam edib: ”Balığın qiymətinin qalxması ilə bağlı son 20 gündə heç bir məlumat yoxdur. Qiymət hələ ki, sabitdir. Lakin aprel ayında kiçik, daha doğrusu, cavan balıqların qiymətnin artması gözlənilir. Çünki balığın kürü verən vaxtıdır. Bu artım çox kiçik miqdarda olacaqdır. Amma bir ilə yaxındır ki, balığın qiymətində artım yoxdur”.

Balığın açıq buzlu soyuducuda olması daha yaxşıdır ki, insanlar ona rahatlıqla baxa bilsin. Yaşıl bazardakı balıq satış şəbəkəsi düşünürəm ki, mükəmməl bir balıq satışı şəbəkəsidir. Balığın normal saxlanma şəraitinə bu bazarda tam əməl olunur”.

*Ayşən Vəli*

# “Nikol Paşinyanın partiyasında müxtəlif fikir ayrılığı var”

**“Armen Sarkisyan vəzifəsindən istefa verdikdən sonra Ermənistanın yeni prezidentinin namizədliyi ilə bağlı müxtəlif iddialar irəli sürülür, müxtəlif versiyalar səslənir. Sözügedən ölkədə prezident postuna ən çox ehtimal olunan şəxs Arayik Arutyunyandır. Yəni adı çəkilən bu şəxsin prezident seçilmə ehtimalı daha çoxdur”. Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.**



Onun sözlərinə görə, Paşinyan öz tabeliyində olan şəxsin prezident seçilməsi ilə qarşısındakı bütün maneələri və əngəlləri aradan qaldırmağı düşünür: ”Çünki gözlənilir ki, məhz prezidentin seçilməsindən sonra Ermənistan hökumətində də bir sıra dəyişikliklər olsun. Paşinyana sadiq olan şəxsin prezident seçilməsi hazırkı iqtidar üçün ən məqbul variantdır. Digər namizədlər haqqında da söz demək istəyirəm, çünki ola bilsin ki, ən çox şansları olan A.Arutyunyandır. Ancaq baş nazirin ailəsinə məxsus ”Harika Akşa Manaq” qəzetinin məlumatına görə, ”Vətəndaş Müqaviləsi” partiyasının prezidentliyə namizədinin irəli sürülməsində hazırkı yüksək texnologiyalar naziri Vahaqn Xaçatryanın namizədliyi haqqında da müəyyən ehtimallar var. Ola bilsin ki, o Paşinyanın gizli namizədidir, burada digərlərinin də adları sadalanır. Amma Arayik Arutyunyanın prezident olma ehtimalı daha çoxdur. Gizli namizədlər haqqında da fikirlər irəli sürülür”.

Politoloq onu da bildirdi ki, ”Qarabağ klanı”nında müəyyən formada Ermənistan parlamentində təmsil olunması və seçkilərin gedişinə təsir göstərməsi, onu deməyə əsas verir ki, ola bilsin ilkin səsvermədə prezident seçilməsin: ”Çünki Paşinyanın ”Vətəndaş müqaviləsi” partiyasının parlamentdə prezidentin seçilməsi üçün mütləq səs çoxluğu yoxdur. İkinci turda isə çox rahatlıqla Paşinyan prezidenti parlamentdə qazandığı mandatlar sayəsində təyin edə bilər. Lakin prezidentin kimliyi bu gün böyük sual altındadır. Son günə qədər Paşinyan götür-qoy edir. Ermənistan mediasına da biz nəzər salanda müxtəlif namizədlərin bu posta layiq olması ilə bağlı təbliğat materiallarını, müxtəlif çıxışlarını görürük. Ancaq son sözü Nikol Paşinyan və onu təmsil etdiyi partiya deyəcək. Partiya daxilində də müxtəlif fikir ayrılığı var. Onların özü də hələ Nikol Paşinyanın namizədinin vahid şəkildə kim olması haqqında məlumatsızdılar. Son günə qədər onun kimliyi gizli saxlanılacaq. Amma indidən deyə bilərik ki, Arayik Arutyunyanın prezident seçilmə ehtimalları çox yüksəkdir. Çünki Ermənistan hökumətində artıq bu barədə çox geniş şəkildə danışırlar”.

*Gülyana*

# “Gənclərimizin keyfiyyətli təhsil almaq problemi var”

"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlının SİA-ya müsahibəsini təqdim edirik.



***- Sizin üçün 2 fevral Gənclər gününün əhəmiyyəti nədən ibarətdir?***

- Gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə verdiyi böyük qiymət və hədiyyədir. Azərbaycanda bu gün də uğurla davam etdirilən gənclər siyasətinin əsasını Heydər Əliyev qoyub. O zaman Gənclər və İdman Nazirliyinin yaradılması, gənclərlə bağlı forumların keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və atılan digər uğurlu addımlar bugünkü Azərbaycan gənclər siyasətinin təməli və bünövrəsi idi. Böyük qürurla deyə bilərik ki, həmin proses bu gün də ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda bir sıra layihələrin həyata keçirilməsi və Azərbaycan gənclərinin xaricdə təhsil proqramlarına cəlb olunması, eyni zamanda Azərbaycanda gənclər təşkilatlarının və ayrı-ayrı fərdi gənclərin dəstəklənməsi üçün Gənclər Fondunun təsis edilməsi və gənc kadrların rəhbər vəzifələrə çəkilməsi Azərbaycanda gənclər siyasətinin dövlət siyasətinin ayrılmaz hissəsi olduğunu göstərir. Biz bu gün Azərbaycan gənclərini hakimiyyətin müxtəlif qollarında görürük. Bu günə qədər aparılan gənclər siyasəti və gənclərlə ideoloji iş öz nəticəsini verdi.

***- 44 günlük Vətən Müharibəsində gənclərin böyük rolu olub. Bu qəhrəmanlıq dastanı yazılarkən gənclərin gördükləri işləri daha hansı meyarlarla izah edə bilərik?***

- Azərbaycan gəncləri Vətən müharibəsi sınağından üzü ağ çıxdı. Əsgər kimi Azərbaycan gəncliyi ön cəbhədə düşmən təxribatlarının qarşısını aldı, həm də Azərbaycan torpaqlarının qaytarılmasında mühüm rol aldı. Eyni zamanda arxa cəbhədə də informasiya müharibəsinin aktiv iştirakçısı oldu. Bu gün müharibə bitsə də, düşmənin informasiya cəbhəsində təxribatları bitmir. Lakin bu məsələdə Azərbaycan gəncliyi sözün həqiqi mənasında böyük fədakarlıq və peşəkarlıq ortaya qoydu. Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərə bağlı, həm də müasir dünyanın çağırışlarına cavab verən bir qüvvədir.

***- Gənclərimiz beynəlxalq arenada ölkəmizi necə təmsil edir?***

- Azərbaycan gəncləri beynəlxalq arenada öz üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirir. İctimai vəzifələrini icra edən gənclərimiz Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, Qarabağ həqiqətlərinin beynəlxalq müstəvidə tanıdılmasında ciddi addımlar atıblar. Şübhəsiz ki, Azərbaycanın müstəqil siyasəti Azərbaycanı sevməyən ölkələri narahat edir. Azərbaycan gəncləri müxtəlif təxribatlara hazırlıqlı olmalıdır. Çünki hərbi güclə Azərbaycana qalib gəlməyən və beynəlxalq müstəvidə dəstəyini itirən Ermənistan yalnız qara piar və təxribat vasitəsilə Azərbaycanın haqlı qələbəsini zədələməyə çalışacaq. Belə şəraitdə həm fərdi gənclərin, həm də gənclər təşkilatlarının üzərinə böyük vəzifələr düşür. Biz yalnız ölkə daxilində keçirilən işlərlə kifayətlənməməliyik. Eyni zamanda beynəlxalq əməkdaşlıq işini genişləndirməliyik.

***- Azərbaycan gəncləri özlərini hansı sahədə sınasalar uğur əldə edə bilərlər?***

- Hər bir gənc dünyagörüşlü olmalı və özünə maraqlı olan sahəyə yönəlmədir. Gənclər ixtisas seçimi edərkən və bir peşəyə yönələrkən kənar təsirlərə məruz qalmadan öz düşündükləri sahəyə yönəlməlidirlər. Sürətlə qloballaşan dünyada yeni dünyanın biliklərinə yiyələnmək lazımdır. Yetişən gənclik öz gələcəklərini müəyyən edərkən dünyada yaranan yeni ixtisasları və elm sahələrini nəzərə almalıdır.

***- Gənclərimizin təhsilə göstərdiyi diqqət sizi qane edirmi?***

- Bilirsiniz ki, gənclərimizin uğurları olduqca çox olsa da müəyyən problemlər də var. Bu gün Azərbaycanda gənclərimizin keyfiyyətli təhsil almaq problemi var. Azərbaycan gəncləri üçün əlverişli təhsil imkanları yaradılmalıdır. Universitetlərdə artıq ənənəvi təhsil yerinə müasir dünyadakı təhsil formalarından istifadə olunmalıdır. Gənclərə təhsilə marağı yaratmaq üçün universitetlər gənclərin sevdiyi məkana çevrilməlidir. Universitetlərdə gənclər üçün əlverişli və rəngli təhsil mühiti yaradılmalıdır.

***Qönçə Quliyeva***

# Vüqar Rəhimzadə: “Azərbaycanda yüksək intellektual səviyyəyə malik gənclər formalaşır”



**“Azərbaycan gəncliyinin müstəqilliyimizin bərpasından ötən 30 illik dövrdə keçdiyi inkişaf yolu təhlil edilərkən uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizin qazanılmasında nümayiş etdirdikləri fədakarlıqlar, Vətən, torpaq sevgisi xüsusi qeyd edilir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ”Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir” fikirlərinin davamı olaraq dövlət başçısı İlham Əliyevin ”Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək.**

Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir. Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır” tezisi gənclərimizin fəaliyyətinin əsas prinsipinə çevrildi, dövlətin onlara göstərdiyi inam və etimadı doğrultmaq üçün ölkə həyatının bütün sferalarında fəallıqlarını daha da artırdılar. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin ən fəal hissəsidir”. Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, ümummilli lider Heydər Əliyevin Fərmanı əsasında 2 fevral Gənclər Gününün təsis edilməsi, ölkə Prezidenti İlham Əliyevin sərəncamları ilə 2007-ci ilin ”Gənclər İli”, 2020-ci ilin ”Könüllülər İli” elan edilməsi gənclərə göstərilən böyük etimadı bir daha nümayiş etdirdi: ”Gənclər ölkənin inkişafında, ictimai-siyasi həyatında, ölkə iqtisadiyyatının möhkəmlənməsində fəallıq göstərirlər.

Hakimiyyətinin birinci dövründə gənclərin formalaşmasına, təhsilinə xüsusi diqqət göstərən ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qaydışından sonra onların dövlət idarəçiliyində irəli çəkilməsini əsas məsələ kimi öndə saxladı. Gəncləri gələcəyimiz kimi dəyərləndirən Ümummilli Lider bu tezisi xüsusi qeyd etdi ki, gələcəyimiz indiki gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır. Son 18 ildə gənclər siyasətinin dövlət başçısı İlham Əliyevin təkmil islahatları əsasında daha da yenilənməsi, təkmilləşməsi gənclərin qarşısında geniş imkanlar açır. Hazırkı dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu nəzərə alsaq gənclər müasir dövrün tələblərinə uyğun addımları ilə ölkənin inkişafına öz töhfələrini verirlər”.

YAP Xətai rayon təşkilatının sədri gənclərin ulu öndər Heydər Əliyev ideyalarının təbliğatçısı kimi ölkənin avanqard siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının sıralarında böyük çoxluq təşkil etməsinin qürurverici olduğunu önə çəkərək bildirib ki, Ümummilli Lider daim bu çağırışı edirdi ki, partiyada gənclərin təmsilçiliyinə xüsusi diqqət yetirilməlidir: ”1995-ci ildə partiyanın nəzdində Gənclər Birliyinin yaradılması da bunun əsas göstəricisidir. Gənclər partiyada təmsil olunmaqla öz potensial imkanlarından maksimum istifadə etmək imkanları qazanır, Heydər Əliyev ideyalarını uğurla həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək gələcəyə böyük inamla addımlayırlar. Bugünün gəncliyi yeni düşüncəli, həyata müasir baxışı ilə diqqət çəkir. Məhz bu yanaşmalar dövrün reallıqlarının gerçəkləşməsinə öz dəstəyini göstərir. Yeni Azərbaycan Partiyasının sıralarında təmsil olunan üzvlərin 40 faizindən çoxunu gənclər təşkil edir. YAP Xətai rayon təşkilatı olaraq gənclərlə işə xüsusi önəm verir, onların inkişafı, potensial imkanlarının ortaya qoyulması üçün müxtəlif layihələr, tədbirlər həyata keçiririk”.

”Bugünkü yeni nəsil bütün sahələrdə vətəndaşlıq mövqelərini sağlam düşüncə tərzi ilə təsdiqləyir, vətənpərvər, zamanın tələblərinə əməli işləri ilə cavab verməyə hər zaman hazır olduqlarını bildirirlər” söyləyən Vüqar Rəhimzadə qeyd edib ki, ölkəmizdə gənclərə dövlət quruculuğu işlərində daha çox üstünlük verilməsi yeni nəslə inam və etimaddan qaynaqlanır. Fəaliyyət göstərdikləri sahələrdə etimadı doğruldan, ictimai-siyasi fəallıqları ilə özlərini cəmiyyətə təqdim edən gənclərimiz bütün potensial imkanlarını nümayiş etdirirlər. Prezident İlham Əliyevin vurğuladığı kimi, müstəqillik baxımından gənc ölkə olan Azərbaycanın əhalisinin xeyli hissəsini dinamik və fəal gənclər təşkil edir.

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Azərbaycan dövlətinin gənclərə inamı, etimadı 44 günlük İkinci Qarabağ müharibəsində Zəfərimizlə təsdiqləndi: ”30 illik torpaq həsrətinə son qoyan Azərbaycan Ordusunun sıralarında mətinlik göstərən gənclərimizin qəhrəmanlığı sayəsində torpaqlarımız öz sahiblərinə qayıtdı. Hərbi əməliyyatlar zamanı düşmənə ağır zərbə vuran, ermənilərin himayədarlarının dəstəyi əsasında yaratdıqları keçilməz istehkamlarını məharətlə yaran əsgər və zabitlərimiz torpaqlarımızı canları, qanları bahasına düşməndən azad etdilər. Şəhidlik zirvəsinə ucalan Vətən oğullarının ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik. 44 günlük Vətən müharibəsinin hər gününü tarixə Zəfər günü kimi yazan Azərbaycan Ordusu bir an belə geri çəkilmədi. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərində hər zaman yer alan ”Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz haradasa geriyə çəkilək, bir dəfə də. Halbuki müharibələrdə belə olur, ordular hücum edir, geri çəkilir, taktiki manevrlər edir. Biz bir gün də geri çəkilmədik” sözləri gənclərin döyüş ruhunun tükənməzliyinin təqdimatı idi. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Dövlət başçısı İlham Əliyevin sərəncamları ilə döyüşlərdə qəhrəmanlıq göstərən hərbçilərimizə Vətən Müharibəsi Qəhrəmanı adının verilməsi, müxtəlif orden və medallarla təltif olunmaları, onlara xüsusi imtiyazların verilməsi, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, avtomobillərlə təmin olunmaları dövlətin bu kateqoriyadan olanlara diqqət və qayğısı ilə yanaşı, Azərbaycan gəncinin Vətən, torpaq sevgisinin yüksək səviyyədə dəyərləndirilməsinin nümayişidir”.

”Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev gənclərin hamisidir” söyləyən Vüqar Rəhimzadə bildirib ki, bunun üçün son 18 ildə Prezident İlham Əliyevin gənclərin inkişafına xidmət edən Fərman və sərəncamlarının, təsdiqlədiyi Dövlət proqramlarının xronologiyasına diqqət yetirmək kifayətdir: ”Bu və bir sıra digər mühüm sənədlərin qəbul olunması və uğurla həyata keçirilməsi ölkəmizdə gənclərin potensialının inkişaf etdirilməsi istiqamətində böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin gənclər siyasətində onların xaricdə təhsili, eyni zamanda, yüksək ixtisaslı kadr kimi yetişdirilməsi əsas yer tutur. ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın, habelə ”2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın nəticəsində Azərbaycan gəncləri dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa nail olublar. ”Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında” 30 sentyabr 2021-ci il tarixli Sərəncamda da gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının layihəsinin hazırlanması nəzərdə tutulub”.

YAP Xətai rayon təşkilatının sədri keçilən yola qısa baxış fonunda bu ümumiləşdirməni aparıb ki, gənclər siyasəti sahəsində atılan addımlar və qəbul olunan qərarlar Prezident İlham Əliyevin gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib və gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır. Gənc kadrların irəli çəkilməsi siyasəti öz müsbət nəticələrini göstərir. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Qalib ölkənin gəncliyi tarixi Zəfərimizin yaratdığı reallıqların yüksək səviyyədə təqdimatında və təsdiqində fəal iştirak edir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan gəncləri milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunan, dövlət maraqlarını hər şeydən üstün tutan gənclikdir.

SİYASİ RAKURS+GEOSİYASƏT

# Titanların rəqabəti: ABŞ, Rusiya, yoxsa Çin?

## İstənilən qarşıdurmanın sonu savaşdır, bəşəriyyət isə artıq müharibələrdən usanıb...

Rusiyanın ABŞ-dan tələb etdiyi "təhlükəsizlik zəmanəti" ətrafında inkişaf edən mövcud situasiya yeni konturlar yaratmağa başlayır. Hətta bu mövzudan yeni nəticələr də hasil etmək mümkündür. Belə ki, beynəlxalq qarşılıqlı münasibətlər sistemi formalaşmasının final mərhələsinə daxil olub və geosiyasi mərkəzlər söz və bəyanatlardan əməli işlərə keçid ediblər. Burada isə əsas faktor kimi ABŞ-ın, Rusiyanın və Çinin növbəti dəfə coğrafiya, konkret regionlar üzərində yeni qaydalar tətbiq etmək cəhdlərini görmək mümkündür - ABŞ hərbi və iqtisadi güc, Çin həm iqtisadi, həm də artan hərbi imkanları, Rusiya isə bilavasitə hərbi imkanları ilə.



### Üç ölkə öz siyasətlərini bir-birlərinə qarşı necə yönəldirlər?

Bu ölkələr öz aralarında yeni rəqabət ortamı yaradır və onlar eyni zamanda, bir-birlərini digərinə qarşı çıxarmağa məcbur edirlər. Misal üçün, nə zaman ki, ABŞ öz diqqət və resurslarını Çinə qarşı məhdudlaşdırma siyasətinə doğru yönəldirsə, Rusiya dərhal Avropada, Yaxın Şərqdə öz hərbi əzələrini nümayiş etdirməyə başlayır. Çin isə iqtisadi mexanizmlərini işə salır və belə desək, Rusiyanın Avropa və Yaxın Şərqdəki siyasətindən məmnun qalır. Belə ki, Rusiyanın fəallığı ABŞ-ın diqqətini istər-istəməz Rusiyaya tərəf yönəldir.

Lakin ABŞ-dakı rus-çin lobbiləri bir-birlərinə qarşı antitəbliğatla məşğul olurlar. Çinyönümlülər Putini hədəfə alır, rusiyayönümlülər isə anti-Çin isteriyasına odun atırlar, çünki əsas məqsədləri Vaşinqtonun diqqətini cəlb etməkdir. Yəni ABŞ-a demək istəyirlər ki, "biz rəqib olar bilərik, amma onlar bizdən də təhlükəlidirlər"...

Söz yox ki, ABŞ-da da anlayırlar ki, onlar hər regiona xüsusi diqqət göstərməyi sadəcə çatdırmırlar və bununla da istər-istəməz öz siyasi konsentrasiyalarını itirirlər. Məsələn, öz hərbi güclərinin Əfqanıstandan çıxarılması kimi olaylarla.

### Rusiya Ukraynanı, Çin isə Tayvanı seçib - bəs ABŞ hansına "təhlükəsizlik zəmanəti" verəcək?

Beləliklə, Rusiya bütövlükdə Qərbə meydan oxuyur və özünü sübut etmək üçün hədəf kimi Ukraynanı seçib, dolayısı ilə postsovet məkanlarını da buraya əlavə etmək mümkündür. Çin də boş dayanmayıb və hazırda Tayvan məsələsi gündəmdədir, üstəlik, Sakit okeanla həmsərhəd ölkələr də nə zamanda hədəfə alınacaq.

Və əgər ABŞ bu kimi cərəyan edən hadisələrin fonunda Rusiyanın tələb etdiyi "təhlükəsizlik zəmanətini" icra edərsə, Çin də öz növbəsində sərhədləri perimetri boyunca Amerikadan bunu tələb edəcək. Hətta "təhlükəsizlik zəmanəti" ifadəsinin arxa plana keçərək yeni savaş mühitinin yaranmasını da ehtimal etmək olar.

Nəticədə isə belə bir qənaətə gəlmək olar ki, titanların rəqabəti fonunda baş verən olaylar öz oxu çərçivəsindən çıxarsa, bu, bütövlükdə dünyaya hər hansı müsbət hallar bəxş etməyəcək. Belə ki, istənilən qarşıdurmanın sonu savaşdır, bəşəriyyət isə artıq müharibələrdən usanıb...

***Rövşən RƏSULOV***

# "Xilas edilən "erməni xalçaları"?.."

"...Dağlıq Qarabağda 44 günlük müharibə zamanı möcüzəvi şəkildə çıxarılaraq xilas edilən Şuşa Xalça Muzeyinin kolleksiya nümunələri İrəvandakı Aleksandr Tamanyan adına Milli Memarlıq Muzeyində nümayiş etdirilir. Amma İrəvana gətirə bilmədiyimiz nadir eksponatların bəzisinin taleyi isə hələ də məlum deyil".




Qeyd edək ki, bu sözləri ötən gün multimedia mətbuat mərkəzində xalça kolleksiyasının sahibi Vardan Astsatryan bildirib. Özü də çaşıb eləmədən. Amma belə görünür ki, Azərbaycan Ordusunun qədim Azərbaycan mədəniyyət mərkəzi-Şuşanın geri alması ermənilər üçün də "düşərli olub". Belə ki, artıq bu gün ermənilər adətlərinə sadiq qalaraq, oğurluq da olsa belə, hər halda özlərinin "xalça muzeyi"ni "yaradıblar".

Yəqin ki, bu sahə ilə maraqlananlar xatırlamış olarlar. Belə ki, bir müddət bundan əvvəl erməni etnoqraf Asmik Poqosyan guya "xalçaçılığın vətəni" olan Ermənistanda bir dənə də olsa xalça muzeyinin olmamasının səbəbini bilirsiniz nə ilə əlaqələndirmişdi? ...Ermənilərin "toxuduqları xalçaların" azərbaycanlılar tərəfindən "ağına-bozuna" baxmadan belə satın almalarıyla. Yəni, doğrudanmı, bu belədir? Bəs onda erməni Sarkis Saturyanın dediklərini hara yazaq? Axı o həmişə erməni xalqını "döyüşkən", azərbaycanlıları isə "torqovets", yəni alverçi kimi təqdim etməyi "sevirdi".

Təbii ki, ermənilərin hansı "döyüşkənliyə" qadir olduqları 44 gün ərzində məlum oldu. Amma, sən demə, onların "torqovets"liyi də elə "döyüşkənlikləri" kimi saxta imiş. Əgər, saxta olmasaydı, Vardan Astsatryan deməş, "toxuduqları" nadir xalça nümunələrini, dediyim kimi, "ağına-bozuna baxmadan" azərbaycanlılara satmazdılar.

Təbii ki, bütün bunlar, bizim artıq öyrəncəli olduğumuz erməni yalanından başqa bir şey deyil. Çünki, bu gün təkcə bizim yerli tədqiqatçılarla yanaşı, həm də xarici tədqiqatçılar da ermənilərin xalçaçılıqla heç bir əlaqəsi olmayan bir xalq olduqlarını bildirirlər. Məsələn, bu sahə ilə məşğul olan amerikalı incəsənət tədqiqatçısı Artur Pop bir müddət bundan əvvəl nəşr elətdirdiyi "Ermənilərin əjdahalı xalçalar haqqında əfsanələri" adlı tədqiqat əsərində əjdahalı xalçaların ermənilərə məxsus olmadığını sübut edib. Popun fikrincə, Ermənistan ərazisində ermənilərin nə vaxtsa xalçaçılıqla məşğul olmaqlarını sübüt edən heç bir yazılı nə mənbə, nə də ki, yerli ənənə olmayıb.

...Kimə deyəsən? Ermənilər buna da "əsas" tapıblar...sən demə, ötən əsrin əvvəllərində Türkiyədə ermənilərdən "müsadirə olunan" xalçalar sonradan auksion yolu elə azərbaycanlılara satılıb ki,..və bu xalçalar da indi Azərbaycan və ya türk xalçası kimi təqdim olunur.

Amma... yaxşısı budur, yenə də rəsmi mənbələrə istinad edək: "...Azərbaycan xalçasının simvolları - medalyonların içərisində səkkizguşəli ulduz, bərabərbucaqlı xaç, "üç dünya" sxemi - dünyanın türk-şaman mənzərəsi, "arzular ağacı" arxetipi, svastika, S şəkilli elementlərdən ibarətdir.

Mütəxəssislərin fikrincə, bu simvollar yalnız qədim türk inancının qorunub saxlanıldığı Türk-Azərbaycan mühitində yarana bilərdi". Amma, lakin...yenə də kimə deyəsən?

***Ağasəf Babayev***

# DSX: Saxta sənədlərlə dövlət sərhədini keçməyə cəhd edənlər saxlanılıb

Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Nəzarəti tərəfindən 2022-ci ilin yanvar ayı ərzində dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkil edilməsi, qaçaqmalçılıq fəaliyyətləri, qanunsuz miqrasiya ilə mübarizə sahəsində fəaliyyətlər davam etdirilib



DSX-dən SİA-ya bildirilib ki, qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 29 halda 32 nəfər saxta sənədlərlə dövlət sərhədini keçməyə cəhd edərkən saxlanılmışdır. Bunların 25 nəfəri AR vətəndaşı, 7 nəfəri Türkiyə Respublikasının vətəndaşları olmuşlar. Araşdırma zamanı saxtalaşdırılmış sənədlərin əsasən Avropa İttifaqı üzv ölkələrinin şəxsiyyət vəsiqələri, daimi yaşayış kartları olması müəyyən edilmişdir.

Hesabat dövrü ərzində hüquq-mühafizə qurumlarının axtarışında olan 218 nəfər dövlət sərhədindən buraxılış məntəqələrində saxlanılaraq aidiyyəti orqanlara təhvil verilmişlər. Bununla yanaşı, ölkədən çıxışı qadağan olan 265 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 11 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınmışdır.

Dövlət sərhədindən buraxılış məntəqələrində rejim qaydalarının kobud şəkildə pozulması ilə əlaqədar 3 halda 3 nəfər saxlanılaraq müvafiq qurumlara təhvil verilmişlər.

# Nəzirlərin dini və psixoloji tərəfləri nələrdi?

BAXIŞ




"Dua ilə nəzir arasında fərqlər çoxdu. Dua Allahı çağıraraq ondan müəyyən istəklərini yerinə yetirməsi üçün istifadə olunur". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları idarəsinin əməkdaşı Hacı Ağasəid Yaqubov bildirib. Onun sözlərinə görə, Allah da həmin istəkləri qəbul edərək, yerinə yetirir: "Quranı Kərimdə Allah buyurur ki, Ya Peyğəmbər əgər insanlar məndən nəsə istəsələr məni çağırsınlar və məndə onlara cavab verəcəm. Dua azad şəkildə rəbbi ilə ünsiyyətə keçmək üsuludu. Lakin bəzi hallarda insanlar bir-biri üçün dua edirlər. Düşünürəm ki, bu məqbul bir haldı çünki Allahın yanında müəyyən şənə sahib olan insan yaxını üçün dua etsə onun arzusu qəbul olar. Nəzir məsələsinə gəldikdə isə deyə bilərəm ki, bu bir ritual növüdü. Nəzir dua ilə bağlıdı. Çünki bir insan duasının qəbul olması üçün nəzir deyir və həmin dua qəbul olunduqda yetim və yoxsula yardım edir. Allah təla buyurub ki, kim Allah yolunda addım atıb, yaxşı əməllər etsə, allah onun üçün rəhmət və bağlı qapıların açar. Nəzir və duanın fərqi və bağlılığı bundan ibarətdi. İnsanların müəyyən bir məkanlara gedib həmin yerləri müqəddəsləşdirərək dua edib, nəzir vermələri aydınlaşdırılmalıdı. Çünki dua edilən və nəzir qoyulan yer birbaşa Allahla bağlı olmalıdı. Pirlər və məcidlərdə allah aid ayinlər olduğu üçün həmin yerlərdə dua etmək və nəzir vermək məqbul hesab olunur".

"Dini inanclarla psixologiyada 2 cür yanaşma var. Eksiztensializm və kaqnitiz, yəni idrak psixologiyası". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nəzirova bildirib.

Onun sözlərinə görə, eqzestrializm dini inancların gündəlik insan həyatına pozitiv təsir edir: "Koqnitiv yanaşmada isə insanın düşüncələrini nəzərə alır. Yeni burada təməli inanclardan söhbət gedir. Eyni zamanda, bizim avtomatik inanclarımız da mövcuddur. Misal olaraq, mən bu pirə getsəm mənim işim düzələcək və s. Yəni insanlar artıq bunları öz beynində mexaniki olaraq planlayırlar".

***Banuçiçək Hüseynli***









# Ermənistan ordusunun "regional güc mifi" məhv olub

## Armenianreport erməni silahlı qüvvələrinin uçurumun kənarında qaldığını yazır

**Ermənistan ordusunun uğursuzluğunun kökündə dayanan səbəblərdən biri də bu ölkənin hərbi rəhbərliyinin səriştəsizliyi ilə yanaşı, həm də hərbi təchizatı cəhətdən də köhnə sursatlara, texnikalara malik olmasıdır. Artıq bu barədə açıq danışılır, ordudakı özbaşınalıqlardan tutmuş digər bir çox məsələlərə qədər tənqidi fikirlər bildirilir. O cümlədən, uzun illər Rusiyanın Ermənistana verdiyi silahların, texnikaların hər birinin köhnəlmiş olduğu, habelə istifadəyə yararsızlığı haqqında vurğulanır.**

### Erməni analitiki Tevos Arşakyan: "Günah həm də ölkənin və silahlı qüvvələrin əvvəlki rəhbərliklərindədir"

SİA xəbər verir ki, bu mövzu haqqında Ermənistanın aparıcı saytlarından biri - Armenianreport yazıb. Saytın siyasi analitiki Tevos Arşakyanın yazdığına görə, Rusiya ordusu ümidsiz şəkildə köhnəlib - həm silahları, həm də silahlanması nöqteyi-nəzərindən. Analitik sual edir ki, belə olan halda nəyə görə Ermənistan ordusu Rusiya ordusuna orientasiya olunmalıdır?

"Yanvarın 28-də Ermənistan, həmçinin dünyanın bir çox ölkələrinə səpələnmiş erməni xalqı özünün ordu gününü qeyd edirdi. Ermənistanın kiçik ölkə olduğunu nəzərə alsaq, bu, sadəcə, bütün silahlı qüvvələrdəki hərbi qulluqçuların peşə bayramları deyil. Bu təhlükəsizliyin və müstəqilliyin bayramıdır", deyə yazan erməni müəllif qeyd edir ki, bu ordu özünün 30 illiyinə kifayət qədər ağır emisoyalı və ağır fiziki vəziyyətdə yanaşdı: "Burada günahların hamısı yalnız mövcud hakimiyyətdə deyil. Buna isə biz öz materialımızda qayıdacağıq. Günah həm də ölkənin və silahlı qüvvələrin əvvəlki rəhbərliklərindədir".

Tevos Arşakyan burada 90-cı illərin ordusunu xatırladır və qeyd edir ki, həmin vaxtdakı silahlı qüvvələr güclü idi və s. Lakin sonradan baş verənlərin niyəsini izah etməyə çalışan müəllif sual edir ki, əgər ordu həqiqətən də güclü idisə niyə müharibədən məğlub vəziyyətdə çıxdı? Cavabı isə belədir: "Ona görə ki, Koçaryanın, Sarqsyanın və Paşinyanın bütün hökumətləri silahlı qüvvələri təhlükəsizlik qarantı və dövlətçilik timsalı kimi görmürdülər, ona ayrılmaz və vahid orqanizm kimi baxmırdılar, əksinə, şəxsi mənfəətlərinin mənbəsi kimi görürdülər".

### Hərbi rəislər - müdafiə nazirləri, baş qərargah rəisləri və müxtəlif idarələrin generalları, polkovnikləri oliqarx idilər

Tevos Arşakyan əlavə edir ki, 2000-ci illərdə Ermənistan oliqarx və zənginlərdə doldu və onlar kimlər idilər? Hərbi rəislər - müdafiə nazirləri, baş qərargah rəisləri və müxtəlif idarələrin generalları, polkovnikləri. "Onlar ordu üzərində varlanırdılar, siyasilər ordunun üzərində öz piarlarını aparırdılar, ordu isə öz növbəsində korrupsiyalar, kriminallar vasitəsi ilə parçalanırdı. Axı mən nədən danışıram - son vaxtlara qədər hərbi xidmətdə olan yaxınlarımıza, qohumlarımıza alt paltarları, corablar, şəxsi gigiyena vasitələri və pul göndərənlər bizlər deyildikmi?", deyə müəllif sual edib və bildirib ki, dövlət büdcəsindən bu kimi vasitələr üçün vəsaitlər ayrılırdı, lakin bu vəsaitlər orduya gedib-çıxmırdı: "Bütün bu illər ərzində bizə müdafiə istehkamlarının tikintisi, müasir silahların alınması, müdafiə xərcləri barədə yalanlar sırınırdı, üstəlik etiraz edərək küçələrə çıxan əsgər anaları təzyiqlərə məruz qalırdılar. Yəni ordunun problemləri arxa plana atılırdı.

Situasiyanı dərinləşdirən daha bir amil ölkə və silahlı qüvvələr rəhbərliyinin üç onilliklər boyunca orduda islahatların aparılmaması və qərb nümunələrinə uyğunlaşdırılması oldu. Ümumilikdə erməni ordusu sovet-rus tipində qalıb. Ona görə də təyin edilən rəhbərlər məhz Moskvaya orientasiya olunmuş sovet-rus ali məktəblərində təhsil almış şəxslər olub".

### Mövcud hakimiyyət də əvvəlki hakimiyyətlər tərəfindən buraxılmış səhvləri düzəltməyə tələsmir

Müəllif Azərbaycanı nəzərdə tutaraq bu illər ərzində Türkiyənin və İsrailin müdafiə sənayesi ilə əməkdaşlıq etdiyini yazıb və bildirib ki, bu texnologiyalar müasir qərb hərbi sisteminə uyğunlaşdırılıb. Ermənstanın isə bu kimi faktlara etinasız yanaşması bəlli nəticələrə gətirib-çıxardı. Tevos Arşakyan əlavə edib ki, bütün baş verənlərə rəğmən, mövcud hakimiyyət də əvvəlki hakimiyyətlər tərəfindən buraxılmış səhvləri düzəltməyə tələsmir. Belə ki, indiki hökumət nəinki Rusiyanın ordu strukturundan imtina etmir, əksinə, silahlı qüvvələrə olan Rusiya təsiri saxlanılır, bunun əvəzinə isə ölkənin suverenliyi və təhlükəsizliyi Moskvaya həvalə edilir. O cümlədən, 44 günlük müharibədən sonra belə Moskvanın Ermənistana təsirləri qalmaqda və artmaqdadır.

Müəllif hakim "Vətəndaş sazişi" partiyasının deputatı Eduard Ağacanyanın "Ermənistan Rusiya ilə xüsusilə hərbi sferada əməkdaşlığını dərinləşdirmək məqsədindədir" fikrini əsas gətirib. Ağacanyanın sözlərinə görə, 44 günlük müharibədən sonra Rusiya Ermənistanda təhlükəsizlik sisteminin qurulmasında həlledici açar rolunu oynayır və Ermənistan Moskva ilə bu sahədə əməkdaşlığını dərinləşdirmək niyyətindədir.

### Analitik yazar: "Biz Moskva ilə sıx hərbi-texniki əməkdaşlığa Rusiyanın Ermənistandakı mövcudluğuna ümid edirdik, deyirdik ki, bu, Azərbaycana və Türkiyəyə qarşı etibarlı qalxan olacaq"

"Yəni hər şey köhnədə olduğu kimi qalacaq - hərbi nizamnamədən tutmuş hərbi ekiperovkalara və təchizata qədər. Rusiya yalnız özünün nüvə silahlarının sayına görə güclüdür, başqa heç nə ilə. Onun onilliklərlə hərbi planlanma məsələləri, taktiki metodları, strateji prinsipləri dəyişilmir. Dünyada gedən bütün texnoloji dəyişikliklər Rusiyadan yan keçib. İndi aydın görünür ki, bunlar Ermənistanın da üzərindən yan keçəcək", deyə Tevos Arşakyan yazır.

### Erməni siyasi analitiki sual edir ki, baş verən məlum olaylardan, hadisələrdən sonra Rusiya ilə hansı hərbi əməkdaşlıq dərinləşməsindən söhbət gedə bilər ki?

"Ermənistan onsuz da ərazisinin mühüm hissəsini Rusiyaya etibar edərək təhlükəsizliyini təmin etmək qərarını verib, Rusiyaya hərbi bazasını təqdim edib, Özü də pulsuz. Biz Moskva ilə sıx hərbi-texniki əməkdaşlığa Rusiyanın Ermənistandakı mövcudluğuna ümid edirdik, deyiridik ki, bu Azərbaycana və Türkiyəyə qarşı etibarlı qalxan olacaq. Lakin nəticədə biz satılmış vəziyyətdə qaldıq. Moskva bizi Bakı və Ankaraya dəyişdi", yazan erməni analitiki bundan sonra ordunun NATO-ya doğru irəliləməli olduğunu bildirib.

Lakin göründüyü kimi, heç Qərb hərbi sistemi də Ermənistan ordusuna ciddi baxmır və bu gün ölkədəki mövcud vəziyyət də buna əsas və imkan vermir. Ona görə də, bir daha əminliklə ifadə etmək olar ki, Ermənistan ordusu məhv olub və onun ayağa qalxması, ümumiyyətlə, üfüqdə də görünmür...

*Rövşən RƏSULOV*

# İldar Rezyapov:

## "Moskvada faşist əlaltısı Njde haqda filmin nümayişinə cəhd qəsdən törədilmiş təxribatdır"

**"İstəyirsinizsə, filmi Ermənistanda göstərin, amma biz öz siyasətimizi burada, Rusiyada, Moskvada tətbiq etməyə imkan verməyəcəyik"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



***Yanvarın 28-də çoxsaylı şikayətlərdən sonra Moskvada Üçüncü Reyxlə əməkdaşlıq etmiş Qaregin Njde (Qaregin Ter-Arutyunyan) haqqında filmin ictimai nümayişi dayandırılıb. Şou Rusiya Erməniləri İttifaqının təşəbbüsü ilə Ermənistan ordusunun yaradılmasının 30-cu ildönümünə həsr olunub. Lakin filmin nümayişindən əvvəl hüquq-mühafizə orqanlarının əməkdaşları təşkilatçılara gələrək belə nümayişin qanunsuz olması barədə prokurorluğun xəbərdarlığını oxuyublar.***

Filmin nümayişindən əvvəl "Rusiya veteranları" Ümumrusiya İctimai Hərəkatı bu vəziyyətlə bağlı İstintaq Komitəsinə və Baş Prokurorluğa sorğu göndərib.

Qaregin Njde tsexakronizmin- erməni millətçi ideologiyası konsepsiyasının banisidir. İkinci Dünya Müharibəsi illərində o, Alman hakimiyyət orqanları ilə əməkdaşlıq edərək, ermənilərdən yığılmış qoşunları Sovet İttifaqına qarşı döyüşməyə hazırlayırdı.





Son illərdə Rusiya ərazisində dəfələrlə Njdenin şəxsiyyətini şöhrətləndirmək cəhdləri olub. Xüsusilə, bir neçə il əvvəl Krasnodar diyarının Armavir şəhərindəki erməni kilsəsinin ərazisində Njdenin şərəfinə xatirə lövhəsi quraşdırılsa da, sonradan yerli və Moskva deputatlarının fəal etirazlarından sonra o, ləğv edilib. İrəvanın mərkəzində Njdenin 6 metrlik abidəsi də qoyulub.

2019-cu ilin may ayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin tərənnümü ilə bağlı vəziyyət haqqında" hesabat dərc etdi, burada Qaregin Njdeni "millətçi təriqətin mübahisəli siyasi xadimi" adlandırdı, belə ki, onunla bağlı Üçüncü Reyx ilə əməkdaşlığı haqqında məlumat var. Həmçinin, Njdenin Üçüncü Reyxlə əlaqəsi Rusiya Müdafiə Nazirliyinin məlumatları ilə də təsdiqlənir. 1948-ci ildə Njde SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyi yanında Xüsusi Müşavirədə antisovet fəaliyyətinə və faşist Almaniyasına yardımа görə təqsirli bilinərək 25 il müddətinə azadlıqdan məhrum edilib.

SİA xəbər verir ki, "Rusiya Veteranları" Ümumrusiya İctimai Hərəkatının (OOD) sədri İldar Rezyapov strukturun Rusiya Federasiyasının İstintaq Komitəsi və Baş Prokurorluğuna baş vermiş hadisə ilə bağlı müraciəti haqda "Moskva-Bakı"ya münasibət bildirərkən belə deyib. O, nasizmi şöhrətləndirmək cəhdlərinin yolverilməzliyini aşağıdakıları ifadə edib:




- Nasizmin reabilitasiyası, faşistlərin tərəfində Sovet vətəndaşlarını qətlə yetirənləri, Üçüncü Reyxlə əməkdaşlıq etmiş şəxsləri qurban kimi təqdim etməyə çalışaraq onlara bəraət qazandırmaq cəhdlərini çox diqqətlə izləyirik. Yaxşı, cinayətkardırlarsa, nə cür qurbanlardır?! İndi də gördük ki, Moskvada Rusiya Erməniləri İttifaqı faşist əlalısı Qaregin Njde haqqında film nümayiş etdirməyi planlaşdırır. Bununla bağlı Rusiya İstintaq Komitəsinə və Baş Prokurorluğuna sorğu göndərmişik. Hələ ki, strukturlar müraciətimizə cavab verməyib, lakin biz gözləyirik. Filmin nümayişi planlaşdırılan gün yayımı nəzərdə tutulan yerə şəxsən mən gəldim. İçəri girmək istədim, amma məni içəri buraxmadılar. Giriş ciddi şəkildə siyahılara uyğun olaraq, ümumiyyətlə, yalnız özləri üçün idi.

Nəticədə, görünür, planlaşdırılan şou ilə bağlı mətbuatda məlumatlar yayılmağa başlayandan sonra hadisə yerinə hüquq-mühafizə orqanlarının nümayəndələri gəlib və şou dayandırılıb.

İstəyirsinizsə, filmi Ermənistanda göstərin, amma biz öz siyasətinizi burada, Rusiyada, Moskvada tətbiq etməyə imkan verməyəcəyik.

Axı heç kim hansısa Sovet İttifaqı Qəhrəmanı haqqında film göstərməkdən əziyyət çəkmirdi, etnik ermənilər arasında isə 106 nəfər beləsi var.Yaxşı, millətin fəxri olan belə bir insan haqqında film göstərin. Bu gün bir çoxları Qəhrəmanlar haqqında lazım olduğu qədər çox şey bilmirlər. Bu gün onlar haqqında danışmaq, onları vəsf etmək lazımdır. Amma Ermənilər Birliyi bunu etmədi. Niyə? Deməli, bu qəsdən edilib. Bu, təsadüfi deyil, qəsdən törədilmiş təxribatdır. Bu filmin nümayişinin təxribat olduğunu başa düşərək, yenə də buna getdilər.

Millətlərarası münasibətlərlə belə oynamaq lazım deyil. Bu, şox incə məsələdir. SSRİ etnik zəmində dağıdıldı. Bu gün bu, qəbuledilməzdir, lazım deyil. Və biz belə cəhdləri çox görürük. Məncə, təxribata ehtiyac yox idi. Burada istintaq orqanları, hüquq-mühafizə orqanları birbaşa Rusiya Erməniləri İttifaqının rəhbərliyinə sual verməlidir.

Xatırladım ki, SSRİ məhz milli zəmində, respublikalarda millətçilik əhval-ruhiyyəsini hər cür qızışdırmaqla, SSRİ xalqları arasında münasibətləri antaqonizmə gətirməklə məhv edilib. Bu ssenari indi Rusiya üçün hazırlanmırmı? Son vaxtlar internet resurslarda millətçi təbliğat (yeri gəlmişkən, təkcə erməni deyil) nəzərəçarpacaq dərəcədə artıb.

Ənənəvi dəyərlərin, inancların, mənəviyyatın, bəşəriyyətin ölkə daxilində və xaricində davamlı olaraq dağıdıcı qüvvələrin hücumuna məruz qaldığı çətin bir dövrdə yaşayırıq. Və faşizmə qarşı barışmaz mübarizə aparan, gələcək nəsillərin həyatı naminə qəhrəmancasına həlak olanlarla paralel olaraq düşmən əlaltılarına haqq qazandırmaq, hətta onları qəhrəman, şəhid kimi vəsf etmək üçün edilən hər belə cəhd insanların şüurunda dəyərsizləşməyə səbəb olur. Əsl şücaət, inanılmaz səylər bahasına faşizmi məğlub edənlərlə mənəvi əlaqənin itirilməsi ... Bütün bunlar yalnız sadə insanların düşmənlərinin əlində oynayır, çünki bu, qaçılmaz olaraq aydın mənəviyyat itkisinə səbəb olur. Biz Njde planşetindən və xalqımızın düşmənləri olan nasist cinayətkarları ilə əməkdaşlıqda ləkələnmiş əlaltıların xatirəsini əbədiləşdirməyin digər nümunələrindən ayrılmalıyıq. Bu, faşizm üzərində Qələbə uğrunda şəhid olanların hamısı qarşısında borcumuzdur.

Rusiya Xarici İşlər Nazirliyi, Rusiya Müdafiə Nazirliyi Qaregin Njdeni rəsmi sənədlərdə nasistlərin əlaltısı kimi qeyd edib. Qaregin Njde alovlu millətçidir, bəlkə də çar Rusiyası qarşısında, erməni xalqı qarşısında xidmətləri olub. Amma məsələ ondadır ki, o, Üçüncü Reyxlə qarşılıqlı əlaqədə olub, nəticədə Sovet İttifaqında bir neçə maddə ilə məhkum edilib. Və əgər özünüzü belə əməkdaşlıqla bağlamısınızsa, əllərinizi həmişəlik çirkləndirmisiniz və qəhrəman sayıla bilməzsiniz. Belə çıxır ki, kimsə Rusiya dövlətinin xəttinə qarşı çıxmağa çalışır. Rusiya Federasiyasının prezidenti dəfələrlə nasizmi izzətləndirmək cəhdlərinə qarşı mübarizənin vacibliyini vurğulayıb. Bu mövzu MDB sammitləri çərçivəsində mütəmadi olaraq qaldırılır. Görünür, kimsə narahatdır, çünki o, yenidən bu notda oynamağa qərar verdi. Axı Rusiya ərazisində bu kollaboratoru şöhrətləndirmək cəhdləri təkcə burada və indi deyil, bir neçə ildir ki, davam edir. Biz bu mövzunu araşdırdıq, bilirik ki, Krasnodar diyarının Armavir şəhərində Njdeyə xatirə lövhəsi qoyulub, bu vəziyyət sonda öz həllini tapıb, memorial ləğv edilib. Biz bilirik ki, Ermənistanın özündə Aleksandr Qriboyedovun abidəsinin üzərinə boya tökülməsi halı olub. Kimsə açıq-aydın millətçi kartı oynayır. Biz bu cür cəhdləri izləməyə və dayandırmağa davam edəcəyik.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
2 fevral
2022-ci il

# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR




1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN




## “Marsel” - ”Qarabağ” matçı harada keçiriləcək

”Qarabağ” UEFA Konfrans Liqasının pley-off mərhələsində ”Marsel” ilə səfər oyununu Fransada keçirə biləcək. Qol.az ”Foot-national” nəşrinə istinadən xəbər verir ki, Fransa hökuməti ”Marsel”in müraciətini müsbət cavablandıraraq, görüşün ölkədə keçirilməsinə icazə verib.

Fransanın idman naziri Roksana Marasinyanu da Çin və Rusiya peyvəndindən istifadə edən idmançıların ölkəyə gələ biləcəyini açıqlayıb. Onun sözlərinə görə, xarici idmançılar ölkələrində tam peyvənd təqvimini təqdim etmələri və ciddi sağlamlıq protokoluna əməl etmələri şərti ilə Fransaya buraxılacaqlar. Futbolçular qarşılaşmanın startından 24 saat əvvəl test verməlidirlər Xatırladaq ki, ”Qarabağ”ın futbolçularına vurulmuş ”Sinovac” vaksini Fransada qəbul olunmur. Buna görə də oyunun neytral ölkədə keçirilməsi variantı gündəmdə idi.

Qeyd edək ki, ”Qarabağ”ın ”Marsel”lə ilk oyunu fevralın 17-də səfərdə, cavab görüşü isə fevralın 24-də Bakıda olacaq.



## "Çeburaşka"nın yaradıcısı 93 yaşında vəfat edib

“Çeburaşka” cizgi filminin yaradılmasında yaxından iştirak edən rejissor və animator Maya Buzinova 93 yaşında vəfat edib. SİA xəbər verir ki, bu barədə bazar günü ”Soyuzmultfilm” kinostudiyasının baş redaktoru Sergey Kapkov məlumat verib. O, ”Facebook” səhifəsində məhz Buzinovanın ”Çeburaşka”ya həyat verdiyini yazıb.

Qeyd edək ki, karikaturaçı rəssam olan Maya Buzinova uzun illər SSRİ dövlət teleradiosunun ”Ekran” istehsalat birliyində çalışıb və bir çox məşhur cizgi filmlərinin yaradılmasında iştirak edib.



## Alman şahzadəsi 27 yaşlı gəncə 15 milyon funt-sterlinq miras bağışladı

**Zsa Zsa Qaborun sonuncu həyat yoldaşı Almaniya şahzadəsi fon Anhalt titulunu və 15 milyon funt-sterlinq mirasını bağışlamaq üçün 27 yaşlı Kevini övladlığa götürdü. SİA xarici mətbuata istinadən bildirir ki, 1986-cı ildən ölümünə qədər evli olan 78 yaşlı şahzadə sərvətini və titulunu miras qoymaq üçün 27 yaşlı alman Kevin Feuçtu övladlığa götürüb. Von Anhalt yetkin bir ”oğul” övladlığa götürmək qərarına gəldiyini söyləyib və qeyd edib ki, övladı olmadığı üçün minillik kral soyunun sona çatmasını istəmir.**

***Abutel İlhamqızı***

## Pandemiya psixologiyamıza NECƏ TƏSİR EDİR?

“İnsanlıq yaranandan insanlar həbsdən, cəzalardan, məhbusluqdan qorxublar”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib.

Psixoloq qeyd edib ki, pandemiya insanları ev şəraitinə məhbus etdi, onların sərbəstliyini, azadlığını əlindən aldı: ”Pandemiya insanları asosial elədi, insanların bir-biri ilə canlı olaraq münasibət qurmasına mane oldu. Bununla da pandemiya əslində onu göstərdi ki, insan sosial varlıqdır və insanların sağlam psixologiyada qalmasına görə bir-birinə ehtiyacı var. Psixoloji həssas insanlar hansı ki, həmin insanlarda müəyyən travmalar var, o insanların müəyyən problemləri üzə çıxdı. Psixoloji həssas insanlarda somatik depressiya, daxili və xarici aqressiya, özünə güvənsizlik, natamamlıq kompleks, özünü təstiq edə bilməmək, titizlik xəstəliyi və s. kimi davranış pozuntuları özünü göstərdi. İntiharların, ailədaxili şiddətin, narkomaniyanın sayı artdı. Aqressiya artdığına görə ictimai qınaq da sərhədsiz olaraq artdı.

Ümid edirəm ki, pandemiyadan əvvəlki dönəmə qayıtdıqca insanların bir-birinə qarşı empati bacarığı yuxarı qalar. İnsanı ünsiyyət, xoş münasibət ayaqda saxlayır. Pandemiya isə insanları kütləvi olaraq azadlıqdan məhrum etdi. Bu da insanların psixologiyasının qaldıra bilmədiyi bir şey idi”.



## Başsağlığı

**“Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev və kollektivi jurnalist Xalid Niyazova həyat yoldaşı**

**JALƏ MƏMMƏDZADƏNİN**

**vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

***Allah rəhmət eləsin***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**